# Azərbaycan millisi Lüksemburqa uduzub



**Azərbaycan futbol üzrə millisi DÇ-2022-nin seçmə mərhələsində çıxışını başa vurub.**

Mərhələdə son oyununu doğma divarlar arasında Lüksemburq yığmasına qarşı keçirən komandamız 1-3 hesabıyla məğlub olub.

Bu qələbədən sonra xalların 9-a çatdıran Lüksemburq seçməsi qrup 3-cülüyünü təmin edib. Azərbaycan isə seçmə mərhələni 1 xalla sonuncu sırada başa vurub.



## Gələn ildən...

Elektrik mühərrikli avtomobillərin satışı ƏDV-dən azad ediləcək

Azərbaycanda gələn ildən elektrik mühərrikli avtomobillərin satışı ƏDV-dən azad edilməsi nəzərdə tutulur.

(səh.4)



# "Azərbaycan sülhün tərəfdarıdır"

**Ceyhun Bayramov:**
"Zəngəzur dəhlizinin yaradılması regionda əməkdaşlığı daha da gücləndirəcək"

**Mövlud Çavuşoğlu:**
"Azərbaycanın əldə etdiyi Zəfər regionda sabitlik və davamlı sülh fürsətinin önünü açıb"

**"Türk Şurası özünün inkişaf dövrünü yaşamaqdadır". Bunu Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov İstanbulda Türk Şurası Xarici İşlər Nazirləri Şurasının iclasında çıxışı zamanı deyib.**

Nazir bildirib ki, 2019-cu ilin 15 oktyabrında Türk Şurasının Bakıda keçirilən Yeddinci Zirvə Görüşündə Azərbaycan təşkilata sədrliyi öz üzərinə götürüb. Onun sözlərinə görə, Azərbaycanın sədrliyi dövrü COVID-19 pandemiyası dövrünə təsadüf etməsinə baxmayaraq, təşkilat tam gücü ilə fəaliyyətini davam etdirib. Həm üzv ölkələri arasında əməkdaşlıq daha da inkişaf edib, həm də təşkilatın beynəlxalq müstəvidə rolu artıb...

(səh.2)


❒ № 206 (5488), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 12 noyabr 2021-ci il (cümə)




## Prezident İlham Əliyev Türkiyə səfərə gəlib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə iştirak etmək üçün Türkiyə Respublikasına səfərə gəlib.**

Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı Atatürk Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

## Samir Şərifov Bakıda torpaq sürüşmələrinin əsas səbəbini açıqlayıb



**"Bakı şəhərində torpaq sürüşmələri ilə bağlı problemlər var".**

Bunu Milli Məclisin Gənclər və idman, Əmək və sosial siyasət, Aqrar siyasət, Regional məsələlər, Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı maliyyə naziri Samir Şərifov deyib.

**Nazir bildirib ki, bunun əsas səbəblərindən biri qanunsuz tikililərlə bağlıdır:** "Qanunsuz tikililərin kanalizasiyalara qoşulması və s. işlər həyata keçirilmir. Qoşulsa belə, bu, hansısa qanun pozuntusu hesabına baş verir. Hökumət qanunsuz fəaliyyət nəticəsində sonradan kifayət qədər böyük xərclərə getməyə məcbur olur ki, bu adamlar başqa yerlərə köçürülə bilsin".

# Gorus-Qafan yolunda gömrük-sərhəd postu quruldu

Ermənilərin ağır tonnajlı maşınları ödəniş edib Azərbaycan ərazisindən keçməyə məcbur olacaq



Gorus-Qafan yolunun Qubadlı rayonundan keçən hissəsində Azərbaycanın gömrük-sərhəd postu qurulub. Bu barədə Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan məlumat verib. O deyib ki, noyabrın 10-dan etibarən Azərbaycan tərəfi Gorus-Qafan avtomobil yolunda gömrük və sərhəd prosedurları həyata keçirməyə başlayacaq, yeni nəzarət-buraxılış məntəqəsi quraşdıracaq. Qriqoryanın sözlərinə görə, erməni tərəfi də cavab addımları atacaq və gömrük məntəqəsi yerləşdirəcək. Qriqoryan bildirib ki, Gorus-Qafan yolunun Azərbaycandan keçən hissəsinə alternativ "Qafan-Tatev yolu" artıq hazırdır.

(səh.2)



## Mülki klinikaya köçürülməlidir

Saakaşvili aclıq aksiyasını dayandırmaq üçün şərtlərini söyləyib

Saxlanıldıqdan sonra 42-ci gündür həbsxanada aclıq aksiyası keçirən Gürcüstanın keçmiş prezidenti Mixeil Saakaşvili bu gün (dünən) aclıq aksiyasını dayandırmaq qərarına gəldiyini, lakin müəyyən şərtlərlə bunu edəcəyini açıqlayıb.

Bu barədə o öz rəsmi Facebook səhifəsində dərc olunan məktubunda bildirib.

"Strasburq məhkəməsinin və Qərb tərəfdaşlarının müraciətini nəzərə alaraq aclıq aksiyasını dayandırmaq qərarına gəldim. Lakin bunun üçün şərtlər var", - deyə məktubda bildirilir.

Yazıda qeyd olunur ki, aclıq aksiyası bitirdikdən sonra o, mülki klinikada reabilitasiya dövrü keçməlidir. Saakaşvili vurğulayır ki, aclıq aksiyasını dayandırmaq kifayət qədər mürəkkəb prosessdir və həbsxana xəstəxanasında texniki şərait, ixtisaslı tibb işçiləri və təhlükəsizlik təminatları yoxdur, ona görə də o, mülki klinikaya köçürülməlidir.



## Böyük Britaniya şirkəti Şuşa şəhərinin Baş Planının hazırlanmasında iştirak edir

**"Böyük Britaniya şirkəti Şuşa şəhərinin Baş Planının hazırlanmasında iştirak edir".**

APA-nın məlumatına görə, bunu ölkəmizdə səfərdə olan Böyük Britaniya Parlamentinin İcmalar Palatasının Azərbaycanla dostluq qrupunun rəhbəri Bob Blækmən mətbuat konfransında bildirib.

Bob Blækmən deyib ki, Böyük Britaniya qlobal iqtisadi siyasətini artıq sərbəst qurur: "Böyük Britaniya Avropa İttifaqından çıxandan sonra biz iqtisadi əlaqələrimizi Brüsseldən kənar sərbəst qururuq. Böyük Britaniya Azərbaycanla əlaqələri də daha da inkişaf etdirəcək".

# Turana yol görünür

Möhtəşəm bir türk ittifaqı yaradılır

**İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) dövlət başçılarının VIII Zirvə görüşündə təşkilatın gələcəyi ilə bağlı əhəmiyyətli qərarlar qəbul ediləcək.**

Türk dövlətləri prezidentlərinin İstanbulda toplaşmasının çox böyük əhəmiyyəti olduğunu deyən politoloq Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında bildirib ki, türk dünyası artıq ayılıb. Politoloq qeyd edib ki, türk dövlətləri görür ki, digər müsəlman dövlətlərindən hər hansı bir xeyir, fayda gəlmir...

(səh.3)




## Amnistiya Aktının icrası ilə bağlı heç bir boşluğa yol verilə bilməz



**Amnistiya ilə bağlı daxil olan müraciətlər araşdırılacaq, qanunsuzluq aşkar edilərsə, aidiyyəti üzrə tədbir görüləcək.**

Trend-in məlumatına görə, bunu Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova 8 noyabr - Zəfər Günü münasibətilə elan olunmuş Amnistiya Aktına həsr edilmiş "Dövlətimizin humanist siyasətinin növbəti təzahürü" mövzusunda KİV-lərin iştirakı ilə dəyirmi masada çıxışı zamanı deyib.

(səh.3)

## 30 nəfər vəfat edib

Azərbaycanda bir gündə 1774 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 774 yeni yoluxma faktı qeydə alınıb, 2 365 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 30 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 554 096 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 516 013 nəfər müalicə olunaraq sağalıb, 7 372 nəfər vəfat edib, aktiv xəstə sayı 30711 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 350, ötən müddət ərzində isə ümumilikdə 5 321 217 test aparılıb.*



## Pensiya yaşını artırmaqla balans pozulub

Zahid Oruc hökumətdən enerji və kommunal tariflərin, manatın kursunun dəyişməyəcəyinə zəmanət istəyib

(səh.4)



## Müraciətlərin çoxu işsizliklə bağlıdır

Millət vəkili hökuməti yeni iş yerləri açmağa çağırıb

(səh.3)

# "Azərbaycan sülhün tərəfdarıdır"

**Ceyhun Bayramov:**
"Zəngəzur dəhlizinin yaradılması regionda əməkdaşlığı daha da gücləndirəcək"

**Mövlud Çavuşoğlu:**
"Azərbaycanın əldə etdiyi Zəfər regionda sabitlik və davamlı sülh fürsətinin önünü açıb"



**"Türk Şurası özünün inkişaf dövrünü yaşamaqdadır". Bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov İstanbulda Türk Şurası Xarici İşlər Nazirləri Şurasının iclasında çıxışı zamanı deyib. Nazir bildirib ki, 2019-cu ilin 15 oktyabrında Türk Şurasının Bakıda keçirilən Yeddinci Zirvə Görüşündə Azərbaycan təşkilata sədrliyi öz üzərinə götürüb.**

Onun sözlərinə görə, Azərbaycanın sədrliyi dövrü COVID-19 pandemiyası dövrünə təsadüf etməsinə baxmayaraq, təşkilat tam gücü ilə fəaliyyətini davam etdirib. Həm üzv ölkələri arasında əməkdaşlıq daha da inkişaf edib, həm də təşkilatın beynəlxalq müstəvidə rolu artıb: "Bu xüsusda, üzv dövlətlərlə əməkdaşlıq çərçivəsində başda baş katib cənab Bağdat Amreyev olmaqla, Türk Şurası Katibliyinin heyətinin fəaliyyətini təqdir edirik. Keçdiyimiz dövr ərzində Özbəkistan Respublikası Türk Şurasının tamhüquqlu üzvü olub, Türkmənistan təşkilatda müşahidəçi statusu alır".

*Ceyhun Bayramov bildirib ki, bundan sonra regionda proseslər yaranmış yeni reallıqlar əsasında inkişaf edəcək:* "Dünya birliyinin bu inkişafa dəstəyi regionda sülhün, sabitliyin və rifahın möhkəmlənməsinə xidmət edə bilər. Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli birgə bəyanatı xüsusilə regionda kommunikasiya xətlərinin açılması ilə əlaqədar olan 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatı ilə daha da inkişaf etdirilib. Regionda nəqliyyat kommunikasiya xətlərinin açılması üçün konkret istiqamətlərdə fəaliyyətə başlanılıb. Nəqliyyat, kommunikasiya, infrastruktur layihələri iştirakçı dövlətlərin hər birinin maraqlarına uyğun gəlir. Əminəm ki, bu, regionda sülh, təhlükəsizlik və inkişafa töhfə verəcək və bütün türk dünyası, eyni zamanda, digər ölkələr üçün də əlavə imkanlar yaradacaq. Regionda yeni kommunikasiya və nəqliyyat dəhlizlərinin, o cümlədən çox önəmli Zəngəzur dəhlizinin yaradılması əməkdaşlığı daha da gücləndirəcək, habelə ticarət dövriyyəsinin artmasına xidmət edəcək. Ümid edirik ki, tərəfdaş ölkələr də bu imkanlardan istifadə edəcək".

*C.Bayramov vurğulayıb ki, tarixi Şuşa Bəyannaməsinin imzalanması ilə qarşılıqlı münasibətləri strateji müttəfiqlik üst səviyyəsinə ucalan Azərbaycan və Türkiyənin nümunəvi əməkdaşlığı geniş regional əməkdaşlığı təşviq edir.* O bildirib ki, bu xüsusda, münaqişə sonrası regional əməkdaşlığı nəzərdə tutan və bölgənin bütün böyük dövlətləri tərəfindən dəstəklənən 3+3 formatı ölkələrimiz üçün faydalı əməkdaşlıq mexanizmi ola bilər. Azərbaycan sülhün tərəfdarıdır və nəinki öz regionunda, həmçinin dünyanın bütün bölgələrində dayanıqlı sülhün və sabitliyin təmin olunmasını dəstəkləyir".

*C.Bayramov deyib ki, ötən əsrin 80-ci illərinin sonunda Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları, təxribatları, terror əməlləri ilə başlamış münaqişə Azərbaycana qarşı hərbi təcavüz ilə nəticələnib:* "Müharibənin ilk saatlarından qardaş Türkiyə Azərbaycana dəstək verib. 44 gün ərzində Türkiyənin ən yüksək səviyyədə ölkəmizə verdiyi siyasi və mənəvi dəstəyi şanlı Qələbənin əldə edilməsində əvəzsiz rol oynayıb. Bu müddət ərzində qardaşım Mövlud Çavuşoğlu 5 dəfə Azərbaycana səfər edib. Fürsətdən istifadə edərək, Xarici işlər naziri Mövlud bəyin simasında qardaş Türkiyəyə təşəkkür ifadə etmək istərdim. Türk Şurası 44 günlük müharibə dövründə Azərbaycana dəstək olan bir sıra açıqlamalar verib. Həm Türk Şurasına, həm də bizə dəstək olan bütün dost ölkələrə buna görə təşəkkürümüzü bildiririk".

**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, türk dünyasının birliyi üçün iqtisadi əlaqələrimizi daha da inkişaf etdirməliyik:** "Türk dünyasının birliyi üçün iqtisadi əlaqələrimizi daha da inkişaf etdirməliyik. Transxəzər Şərq-Qərb Ticarət və Tranzit Dəhlizi Zəngəzur dəhlizi ilə güclənəcək və bütün türk dünyasının rifahına töhfə verəcək". Çavuşoğlu deyib ki, Azərbaycanın qazandığı Zəfər əsrə bərabər gün idi: "Azərbaycanın əldə etdiyi Zəfər regionda sabitlik və davamlı sülh fürsətinin önünü açıb.

Mövlud Çavuşoğlu bildirib ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) dövlət başçılarının VIII Zirvə Görüşündə təşkilatın gələcəyi ilə bağlı əhəmiyyətli qərarlar qəbul ediləcək. Onun sözlərinə görə, Zirvə Görüşündə Türkmənistan müşahidəçi statusu ilə təşkilata üzv olacaq: "Türkmənistanın təşkilata üzv olması ilə ailəmiz tamamlanır. Türkmənistana xoş gəldin deyirik". Nazir qeyd edib ki, təşkilatın adı dəyişdirilərək Türk Dövlətləri Təşkilatı olacaq: "Bunun vaxtı çoxdan gəlib çatmışdı". O, təşkilata üzv dövlətləri beynəlxalq gündəlikdə duran məsələlərlə bağlı daha aktiv olmağa çağırıb.

**İsmayıl**



**Prezident İlham Əliyev "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sərəncamında dəyişiklik edilməsi barədə sərəncam imzalayıb.**

# Peşə məktəblərinin tələbələrinin təqaüdləri artırılıb

Sərəncama əsasən, sərəncamın 1.4-cü bəndində edilən dəyişikliyə əsasən, peşə təhsili müəssisələrində akademik göstəriciləri "5" (yüksək texniki peşə təhsili səviyyəsində 91 - 100 bal) olan tələbələrə - 75 manat, akademik göstəriciləri "4" və "5" (yüksək texniki peşə təhsili səviyyəsində 71 - 100 bal) olan tələbələrə - 60 manat, akademik göstəriciləri "3" - "5" (yüksək texniki peşə təhsili səviyyəsində 51 - 100 bal) olan tələbələrə - 50 manat təqaüd veriləcək.

Qeyd edək ki, bundan əvvəl peşə təhsili müəssisələrinin tələbələrinin təqaüdləri 50 manat idi.

Dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, dövlət büdcəsinin vəsaiti hesabına təqaüdlər Azərbaycan Respublikasının ali təhsil və orta ixtisas təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində əyani təhsil alan tələbələrə, ümumi orta müvəffəqiyyət göstəricisi nəzərə alınmaqla, fənlər üzrə akademik nailiyyətlərinə görə, peşə təhsili müəssisələrində əyani təhsil alan tələbələrə isə aralıq qiymətləndirmə nəticələrinə görə bu Sərəncamın 1.2-1.4-cü bəndləri ilə müəyyən edilmiş məbləğlərdə ödəniləcək.

*Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməlidir.*

# Ərdoğan qəbul edilən 9 müqavilədən məmnundur

"Türk Şurası zirvə toplantısının Demokratiya və Azadlıqlar adasında keçirilməsindən qürur duyuruq"

**"Sabah İstanbulda ev sahibliyi edəcəyimiz Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) zirvə toplantısına Macarıstanın Baş Naziri Viktor Orban da qatılacaq. Bu zirvənin ilk dəfə Demokratiya və Azadlıqlar adasında keçirilməsindən xüsusilə qürur duyuruq"**



APA-nın yerli bürosunun xəbərinə görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyədə səfərdə olan Macarıstanın Baş Naziri Viktor Orbanla görüşündən sonra keçirilən mətbuat konfransında bildirib.

Prezident Ərdoğan Türk Şurasında 2018-ci ildən müşahidəçi statusu alan Macarıstanın Budapeştdə Türk Şurası nümayəndəliyinin ofisini açmaqla iki ölkə arasında strateji fəaliyyətin daha da artırdığını bildirib. Dövlət başçısı qeyd edib ki, digər regional və beynəlxalq platformalarda da əməkdaşlıq və həmrəylik inkişaf etdiriləcək: "Macarıstan Türkiyə-Avropa İttifaqı əlaqələrinin inkişafında xüsusi rol oynadığına görə, cənab Orbana və Macarıstana öz adımdan və millətim adından təşəkkür edirəm".

Ərdoğan Türk Şurasına üzv ölkələrin xarici işlər nazirlərinin bugünkü iclasının nəticələrinə görə, qarşılıqlı olaraq qəbul edilən 9 müqavilədən məmnunluğunu ifadə edib.

# Nazir vəd verdi

## 2022-ci ildə də manatın məzənnəsi qorunacaq

**Dünən Milli Məclisdə 2022-ci ilin büdcə zərfi ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin birgə iclası keçirilib. Toplantıda Maliyyə naziri Samir Şərifov, Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Mərkəzi Bankın sədri Elman Rüstəmov da iştirak ediblər.**





## Samir Şərifov saydığını saysın, görək dünyadakı proseslər bizi hansı sürprizlərlə qarşılayacaq

**"Azərbaycanın müdafiə xərcləri 404 milyon manat artırılır"**

"2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı çıxış edən Maliyyə naziri Samir Şərifov bildirib ki, geosiyasi proseslər nəzərə alınmaqla, Silahlı Qüvvələrin müdafiə qabiliyyətinin yüksəldilməsi, işğaldan azad olunmuş ərazilərdə hərbi hissələrin yerləşdirilməsi büdcədə prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib: "Gələn il büdcə xərclərinin 15 faizini, yəni 4 490 milyon manat təşkil edəcək. Ümumilikdə isə müdafiə xərclərində 404 milyon manat artım nəzərdə tutulub".

Samir Şərifov vurğulayıb ki, Nazirlər Kabineti tərəfindən "2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası" artıq hazırlanıb. Sənəd Prezident İlham Əliyevə təqdim edilib: "Sənədin böyük əhəmiyyətini nəzərə alaraq gözləyirik ki, cənab Prezident İlham Əliyev tərəfindən bu sənədə baxıldıqdan sonra 2022-ci il dövlət büdcəsi layihəsinə dəyişikliklər edilə bilər".

Maliyyə naziri qeyd edib ki, ünvanlı yardımın təyin edilməsi üzrə ehtiyac meyarının həddi 170 manatdan 200 manata yüksəldilib: "Ehtiyac meyarının yaşayış minimumuna - 210 manata çatdırılması nəzərdə tutulub. Bununla bağlı müvafiq qanun layihələri büdcə zərfində parlamentə təqdim olunub".

**"Bu il büdcədə profisit yaranacağı proqnozlaşdırılır"**

*S.Şərifov bildirib ki, Dövlət Neft Fondundan gələn il dövlət büdcəsinə 12 milyard 710 milyon manat transfert nəzərdə tutulub:* "Bu il dövlət büdcəsinə Dövlət Vergi Xidməti, Dövlət Gömrük Komitəsi və digər mənbələrdən proqnozlaşdırılandan 1,5 milyard manat artıq vəsait daxil olması proqnozlaşdırılır. İlin sonuna xərclərin 1,2-1,3 manat hissəsinin icra olunmayacağı, büdcə profisitinin yaranacağı gözlənilir. Bu da gələn il keçid layihələrin maliyyələşdirilməsinə imkan verəcək".

Samir Şərifov deyib ki, xarici ticarət dövriyyəmiz də artıb: "Ümumiyyətlə, ilin sonuna gözlənilir ki, büdcədə 1,5 milyard manat qalıq olacaq. Xərclərimizin icrasında bəzi ləngimələrin olmasını da etiraf etməliyik. Büdcə xərclərinin 1,2-1,3 milyard manata qədər icra olunmaması gözlənilir".

**"Sosialyönümlü xərclər 13,5 faiz artırılır"**

**Maliyyə nazirinin sözlərinə görə, dövlət büdcəsi ənənəvi olaraq sosial yönümlü büdcədir:** "Büdcənin sosialyönümlü xərcləri 46,4 faizə çatdırılır. Cari illə müqayisədə həmin xərclər 13,5 faiz artırılır. Həmin xərclərin 60 faizi ilk hissəsi əməyin ödənişi xərcləri ilə bağlıdır". Nazir qeyd edib ki, sosial müdafiə, sosial təminat xərcləri üçün 3 milyard 566 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur: "Növbəti ildə ünvanlı dövlət sosial yardım üçün 260 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Eyni zamanda ehtiyac meyarının həddinin 170 manatdan 200 manata artırılması nəzərdə tutulur".

Nazir manatın məzənnəsinin hansı formada qorunduğunu açıqlayıb: "Çalışırıq ki, büdcə xərcləri hər hansı formada manatın məzənnəsinin dəyərsizləşməsinə xidmət etməsin. 2022-ci ilin dövlət büdcəsinin xərcləri manatın bugünkü məzənnəsi ilə hesablanıb. Bu, manatın məzənnəsi ilə bağlı suallara cavabdır".

**"Azad edilmiş ərazilərdə xidmət keçən hərbçilərin maaşı artacaq"**

*Samir Şərifov azad edilmiş ərazilərdə xidmət edən hərbçilərin maaşı barədə məsələyə aydınlıq gətirib:* "Azad edilmiş ərazilərdə xidmət göstərən hərbi qulluqçuların və Dövlət Sərhəd Xidmətinin əməkdaşlarının maaşlarına Prezidentin sərəncamı ilə əlavələr müəyyənləşdirilib. Gələn il də bu məqsədlə müvafiq vəsait nəzərdə tutulur".

**"Xarici dövlət borcunun azaldılması qarşımıza məqsəd kimi qoyulub"**

**S.Şərifov bildirib ki, Prezident hökumət, Maliyyə Nazirliyi qarşısında vəzifə qoyub ki, dövlət borcumuzu ümumdaxili məhsulun 10 faizi həcminə endirək:** "Dövlət borcumuz yüksək deyil, Hesablama Palatası da bunu qeyd edir. Amma xarici dövlət borcunun ümumi borcda çəkisinin azaldılması, daxili borcun artırılması da qarşıya məqsəd kimi qoyulub. Qiymətli kağızlar, istiqrazlar şəklində girovların yaradılması istiqamətində işlər gedir. 2018-ci ildə dövlət borcu barədə strategiya qəbul edilib, cari ildə bu strategiyanın yenilənməsi nəzərdə tutulur".

Samir Şərifov hüquq-mühafizə orqanlarının əməkdaşlarının da maaşlarının artırılacağını bildirib: "Dövlət başçısının sərəncamına əsasən, büdcədə müvafiq vəsait nəzərdə tutulub və əməkhaqları artırılacaq. Bu, hüquq-mühafizə orqanlarının əməkdaşlarına da şamil olunacaq".

**"İnvestisiya layihələrinin icra edilməməsi bizi narahat edir"**

*Maliyyə naziri deyib ki, investisiya layihələrinin icra edilməməsi, yaxud vaxtında icra edilməməsi onları narahat edir:* "İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi ayrılan vəsaitlərin istifadə edilməsini istəyir. Hökumət və beynəlxalq maliyyə institutlarının maliyyələşdirdiyi layihələrə gəlincə, Dünya Bankının, Asiya İnkişaf Bankının kreditləşdirmə ilə bağlı daha sərt tələbləri var. Təəssüf ki, bizim icraçı orqanlar icra sənədlərinin vaxtında tərtib olunub təqdim olunmasında əziyyət çəkirlər. Maliyyə və İqtisadiyyat nazirlikləri investisiya xərclərinə ayrılan vəsaitlərdən istifadənin növbəti ildə 100 faizə çatdırılması üçün razılığa gəlib, bu sahədə addımlar atılacaq".

**"Ortamüddətli büdcə proqnozları əksər hallarda özünü doğrultmur"**

Hesablama Palatasının rəyində isə bildirilib ki, Palata ortamüddətli planlaşdırma dövrü, xüsusilə növbəti büdcə ilindən sonrakı illər üçün verilmiş proqnozların əksər hallar üzrə özünü doğrultmadığı qənaətindədir: "Azərbaycan gələn il 5,3 mlrd. manat xarici investisiya cəlb etmək niyyətindədir". Rəydə qeyd edilib ki, hər növbəti il üzrə müvafiq istiqamətlərdə proqnozlar kəskin dəyişdirilir. Bu səbəbdən Palata büdcəyə keçidin həyata keçirilməsi zamanı bu istiqamətə fəaliyyətin gücləndirilməsinin zəruriliyi qənaətindədir.

**"Son iki ildə sosial ödənişlər üzrə xərclər 60 faiz artıb"**

**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib ki, son iki ildə sosial ödənişlər üzrə xərclər 60 faiz artıb. Nazir vurğulayıb ki, dövlət başçısının siyasətinin ana xəttini ölkə vətəndaşının sosial rifahı təşkil edir:** "Az müddət ərzində bu qədər artım bu siyasətin bariz nümunəsidir. Pensiya xərcləri son illər ərzində 48 faiz artıb. Son 3 il ərzində ölkədə minimum pensiyalar artıb. Bu atımlar əlilliyə görə 60, ailə başçısını itirməyə görə 75 faiz olub. Ünvanlı sosial yardım isə 81faiz artıb. Bu göstəricilərin hər biri Azərbaycanda sosialyönümlü siyasət həyata keçirildiyinin sübutudur. Son 2 ildə həyata keçirilən iki böyük sosial paket ümumilikdə 4 milyon insanı əhatə etdi. Növbəti dövr üzrə yenə də artımlar planlaşdırılır. Gələn il DSMF-nin büdcəsində 3,1faizlik artım planlaşdırılır. Ümumilikdə gələn il həm gəlirlər, həm xərclər baxımından DSMF-nin büdcəsi artırılır".

**Sahil Babayev son 3 ildə ləğv edilən pensiyaların məbləğini açıqlayıb:** "Son 3 ildə əmək müqavilələrinin sayı 400 min artıb. Bunun 300 mini özəl sektorun payına düşür. Ölkə üzrə əməkhaqqı fondu isə 83 faiz artıb. Bunun özü də ölkədə leqallaşmanın nə dərəcədə həyata keçirilməsindən xəbər verir. Ümumilikdə bu gün DSMF-nin gəlirlərində və əhaliyə ödənişlərində daimi olaraq büdcə və qeyri-büdcənin payı düzgün qurulur. DSMF-də gəlirlərin təminatı ilə yanaşı, xərclərin də şəffaflaşdırılması istiqamətində işlər gedir. Əsassız saxta pensiya işlərinin ləğv edilməsi istiqamətində silsilə işlər gedir. 2018-ci ildə 25,6 milyon, 2019-cu ildə 133,1 milyon, 2020-ci ildə 246,5 milyon, bu il isə 496 milyon manat əsassız pensiya ləğv edilib".

**İsmayıl Qocayev**




# Turana yol görünür

## Möhtəşəm bir türk ittifaqı yaradılır

Aynurə Pənahqızı

**İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) dövlət başçılarının VIII Zirvə görüşündə təşkilatın gələcəyi ilə bağlı əhəmiyyətli qərarlar qəbul ediləcək.**

Türk dövlətləri prezidentlərinin İstanbulda toplaşmasının çox böyük əhəmiyyəti olduğunu deyən politoloq Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında bildirib ki, türk dünyası artıq ayılıb. Politoloq qeyd edib ki, türk dövlətləri görür ki, digər müsəlman dövlətlərindən hər hansı bir xeyir, fayda gəlmir: "Çünki ərəblər, farsdillilər, hər biri fərqli şəkildə faəliyyət göstərir. Bunların əksəriyyəti türk dövlətlərinin əleyhinə işləyən dövlətlərdir və onların birliyini istəmir. Bu iclasda sözsüz ki, türk dövlətlərinin birliyi gündəmə gələcək. İkincisi, türk dövlətlərinin vahid iqtisadi məkan, türkdilli dövlətlərin bir qurum yaratmaq ehtimalı çox yüksəkdir. Düzdür, bir neçə qurum var, amma bunlar artıq tamam türkdilli dövlətlərin vahid ittifaqı demək deyil, yəni bunlar vahid bazar, vahid gömrük zonası yarada bilərlər. Həmçinin, vahid iqtisadi məkan, yeri gəlsə vahid pulu belə yarat-

### Vahid bazar, vahid gömrük zonası yaradıla bilər

ması istisna deyil. Hazırda pandemiya dövrü olduğundan türk dövlətlərinin iqtisadi, bəzi siyasi problemləri var. Onların birlikdə həllinə daha rahat nail ola bilərlər, həm də türk dövlətlərinin gələcəyini proqnozlaşdırmaq mümkün olar. Çünki çox güclü qruplaşmalar gedir, həm milli, həm siyasi, həm iqtisadi müstəvidə. Nədən türkdilli dövlətlər də bu müstəvidə birləşməsinlər? Yəni konfidensial olaraq bu məsələlər də müzakirə oluna bilər. Bu, türk dünyasına həm də bir mesajdır ki, biz varıq, biz birlikdə güclüyük, biz birləşməyi bacarırıq və artıq birləşirik. Bu o deməkdir ki, bu dövlətlərin bir araya gəlməsi vaxtilə türk dünyasının təmsilçisi kimi çıxış edən Turanın yaranmasına gətirib çıxara bilər. Buna kimlərsə mane olmağa çalışacaqlar, ancaq biz başqalarının fikirləri ilə hesablaşmamalıyıq".

**C.Nuriyev qeyd edib ki, türk dövlətləri bir sıra dövlətləri də yanına almalıdır:** "Biz yanımıza qardaş Pakistanı almalıyıq, türk dünyasına çox yaxşı münasibət olan Malayziya, İndoneziya və s. bu kimi müsəlman dövlətlərini. Onları da gələcəkdə bu quruma daxil etmək olar. Yəni söhbət burada sırf ancaq türklərdən ibarət olan bir qurumdan getmir. Türk-müsəlman birliyi də yaradıla bilər və bu çox güclü qurum ola bilər. Bundan başqa onsuz da türkdilli dövlətlərin özünün də müəyyən problemləri var. Həm Azərbaycanın ərazisində Rusiyanın sülhməramlıları var, Qazaxıstanın Rusiya ilə bağlı problemləri var. Türkmənistana, Özbəkistana problemlər yaratmağa çalışırlar. Türkdilli dövlətlər kimi kifayət qədər güclü olan Tatarıstan, Başqırdıstanın da bir araya gəlməsi gələcəkdə reallaşa bilər. Ona görə də bu toplantının çoxsaylı əhəmiyyəti var".

# Əməkdaşlığın zəngin tarixi və parlaq gələcəyi var

## Prezident İlham Əliyev BP qrupunun baş icraçı direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də BP qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul edib.**

BP qrupunun baş icraçı direktoru Bernard Luni son görüşdən keçən dövr ərzində Azərbaycanın əldə etdiyi uğurlar münasibətilə dövlətimizin başçısını təbrik etdi. Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi ilə bağlı əldə edilmiş birgə uğurlar münasibətilə Bernard Lunini təbrik etdi və bu layihənin Azərbaycanla BP şirkətinin birgə səyləri nəticəsində əldə olunduğunu bir daha vurğuladı.

Bildirildi ki, BP şirkəti Azərbaycanla, o cümlədən SOCAR şirkəti ilə dünyada ən güclü tərəfdaşlıq əlaqələrinə malikdir. Öz növbəsində Azərbaycanın da ən möhkəm tərəfdaşlığı BP şirkəti ilədir. Qeyd edildi ki, ölkəmizin bu şirkətlə qarşılıqlı inama əsaslanan əməkdaşlığının zəngin tarixi və parlaq gələcəyi var.

Söhbət zamanı BP şirkətinin bərpa olunan enerjiyə göstərdiyi marağın Azərbaycanın enerji strategiyasına uyğun gəldiyi qeyd edildi, bu sahədə BP ilə əməkdaşlığın genişlənməsi məsələlərinin nəzərdən keçirildiyi bildirildi. BP şirkətinin işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji ilə bağlı planlarının əhəmiyyətinə toxunularaq bunun həmin ərazilərdə ölkəmizin bəyan etdiyi kimi, yaşıl enerji ərazisinə transformasiya etmək işinə xidmət edəcəyinə ümidvarlıq ifadə olundu. Qeyd edildi ki, bu işlər böyük potensiala malikdir, xüsusilə nəzərə alınsa ki, Azərbaycan qonşu ölkələrlə şaxələndirilmiş enerji bağlantılarına malikdir və ölkəmizdə təlabatdan artıq enerji istehsal olunur.

Bernard Luni xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanın faydası naminə karbohidrogen ehtiyatlarının inkişafı ilə bağlı təşəbbüslərini xatırladaraq, hazırda Prezident İlham Əliyevin enerji keçidi məsələsi ilə bağlı baxışlarına görə təbriklərini çatdırdı.

BP qrupunun baş icraçı direktoru Bernard Luni Azərbaycanın ətraf mühitin mühafizəsi sahəsində səylərini yüksək qiymətləndirərək ölkəmizin bu istiqamətdə dünyanın aparıcı dövlətləri sırasında olduğunu dedi və bildirdi ki, Azərbaycanda ətraf mühitin standart və qaydalarının qorunması bir çox inkişaf etmiş ölkələrdən daha güclüdür. Öz növbəsində, Prezident İlham Əliyev Azərbaycanda ətraf mühitin mühafizəsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərdən danışdı.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.

# Gorus-Qafan yolunda gömrük-sərhəd postu quruldu



## Ermənilərin ağır tonnajlı maşınları ödəniş edib yenə Azərbaycan ərazisindən keçməyə məcbur olacaq

İsmayıl Qocayev

**Gorus-Qafan yolunun Qubadlı rayonundan keçən hissəsində Azərbaycanın gömrük-sərhəd postu qurulub. Bu barədə Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan məlumat verib. O deyib ki, noyabrın 10-dan etibarən Azərbaycan tərəfi Gorus-Qafan avtomobil yolunda gömrük və sərhəd prosedurları həyata keçirməyə başlayacaq, yəni nəzarət-buraxılış məntəqəsi quraşdıracaq.**

Qriqoryanın sözlərinə görə, erməni tərəfi də cavab addımları atacaq və gömrük məntəqəsi yerləşdirəcək. Qriqoryan bildirib ki, Gorus-Qafan yolunun Azərbaycandan keçən hissəsinə alternativ "Qafan-Tatev yolu" artıq hazırdır. İddia edib ki, bu yolla həm Gorusa, həm İrəvana getmək mümkündür. Qeyd edək ki, Azərbaycan ötən ilin dekabrında Zəngilan-Qubadlı istiqamətində öz dövlət sərhədlərini bərpa edəndən sonra Gorus-Qafan yolunun bir hissəsi də Azərbaycanın nəzarətinə keçmişdi. Lakin Azərbaycan tərəfi alternativ yolun çəkilməsinə qədər Ermənistan vətəndaşlarının həmin yolla maneəsiz, yəni gömrük və sərhəd prosedurlarından keçmədən hərəkətinə imkan yaratmışdı. Bu ilin avqustundan isə vəziyyət dəyişməyə başladı. Əvvəlcə Azərbaycan tərəfi Qarabağa qanunsuz yükdaşımalarla məşğul olan İran TIR-larına görə Gorus-Qafan yolunun üzərində polis postu yerləşdirdi. İran TIR-larından tranzit yükdaşımalarla bağlı qanunvericiliyin tələbi əsasında yol vergisi tutmağa başladı. Nəticədə İran tərəfi Qarabağa Laçın dəhlizindən keçməklə yükdaşımaları dayandırmalı oldu. Eyni zamanda Ermənistana yük daşıyan İran TIR-ları o zaman qrunt yol olan Qafan-Tatev yolundan istifadə etməyə başladı. İndi isə Azərbaycan Gorus-Qafan yolu üzərində sərhəd-nəzarət məntəqəsi yerləşdirir. Belə vəziyyətdə Ermənistan vətəndaşlarının da bu yoldan istifadəsi sual altına düşür. Çünki sərhəd-gömrük postunu keçmək üçün xarici ölkə vətəndaşları viza təqdim etməlidir. Ermənistanla Azərbaycan arasında diplomatik münasibətlər yoxdur və deməli, Ermənistan vətəndaşları viza almaqla bu yoldan istifadə edə bilməyəcək.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında vurğulayıb ki, Ermənistanda gündəm Gorus-Qafan yolunun Azərbaycan ərazisinə düşən Eyvazlı-Çəmənli hissəsində gömrük məntəqəsinin qurulmasıdır.** Ekspert qeyd edib ki, 11 noyabr tarixindən etibarən bu yoldan keçən erməni maşınları da rüsum ödəməli olacaqlar: "Ermənistan hakimiyyəti vətəndaşlarına alternativ Qafan-Aqvani-Tatev yolundan istifadə etməyi tövsiyə edir. Paşinyan bildirir ki, alternativ yoldan özü istifadə edib, hər şey qaydasındadır. Lakin əlavə edir ki, hazırda qoşqulu maşınların keçidi çətindir, bunun üzərində iş aparılır. Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan isə qeyd edir ki, Eyvazlı-Çəmənli yolundan istifadə etmək istəyənlər müəyyən ödəniş etməli olacaqlar. Yolda gömrük məntəqəsinin qurulmasının üç mümkün nəticəsi ola bilər. Birincisi, üç kəndin - Şahverdilər (Vorotan), Şurnuxu və Bərdzrəvan - təxminən 700 nəfər olan əhalisinin bu yoldan istifadə etməyə məcbur olmasıdır. Kəndlərin Paşinyanın təklif etdiyi alternativ yola çıxış imkanları məhduddur. İkincisi, Eyvazlı-Çəmənli yolundan istifadə edən ermənilərin ödənişi hansı valyuta ilə etməsidir. Ödəniş dollar, yaxud manatla olacaq. Erməni ekspertlər qeyd edir ki, Azərbaycan manatla ödənişə məcbur edə bilər və bu, Azərbaycan valyutasının Ermənistana daxil olması ilə nəticələnə bilər. Əslində ermənilər üzərində təsir imkanlarının artırılması baxımından manatla ödəniş ən unikal variantdır. Üçüncüsü, Ermənistanın Eyvazlı-Çəmənli yolu istiqamətində sərhədin delimitasiyasını qəbul etməsidir. Ermənistan alternativ yolun hazır olduğunu deyir və Azərbaycan suveren ərazisindən keçən yoldan istifadəyə görə erməni maşınlarından da dövlət rüsumu alacaq. Ermənistanın alternativ yolunun əlverişsiz olduğu, xüsusilə yük maşınları üçün çətinlik yaratdığına dair məlumatlar var. Ağır tonnajlı maşınlar yenə Azərbaycan ərazisindən keçməyə məcbur ola bilər".

**Dünən Milli Məclisdə "2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev çıxış edib. Komitə sədri bildirib ki, vətəndaşları qəbul edərkən müəyyən problemlərin qaldığı aydın olur: "Birinci Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş binalar yerli icra hakimiyyətlərinin idarəsinə verilib.**

**Birinci Qarabağ şəhidlərinin ailə üzvləri də kredit borclarının bağışlanmasını xahiş edirlər**



# Müraciətlərin çoxu işsizliklə bağlıdır

## Millət vəkili hökuməti yeni iş yerləri açmağa çağırıb

O binaların əsaslı təmirinə ehtiyac var, amma buna imkan yoxdur. Bundan başqa, Birinci Qarabağ şəhidlərinin ailə üzvləri İkinci Qarabağ müharibəsi şəhidlərinin ailə üzvləri və qazilərinin kredit borclarının bağlanmasını əsas gətirərək, onların da bu borclarının bağlanmasını xahiş edirlər".

**"Yeni iş yerlərinin açılması vacibdir..."**

**Musa Quliyev hökuməti yeni iş yerləri açmağa çağırıb. Deputatın sözlərinə görə, əmək məhsuldarlığının yüksəldilməsi hər bir dövlətin qarşısına qoyduğu prioritet məsələlərdən biridir:** "İş yerlərinin açılması məşğulluğun daha geniş miqyasda təmin olunmasına şərait yaradardı. Vətəndaşlarımızın yeni iş yerləri axtarmasına zərurət yaranıb. Məsələn, Gəncədə 4000-dən çox daimi iş yerinə ehtiyac olduğu halda, yeni açılan iş yerləri bundan dəfələrlə azdır. Müraciətlərin çoxu işsizliklə bağlıdır. Pandemiya dövründə də gördük ki, insanlar sosial iş yerlərinə o qədər də həvəslə getmirlər. İş yerlərinin açılması daha çox özəl sektorun üzərinə düşür. Amma özəl sektoru da təşviq etmək üçün işlər görülməlidir".

**Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov müharibə veteranlarına verilən aylıq müavinətin 130 manata qaldırılmasını təklif edib:** "Son 20 ildə Azərbaycanın dövlət büdcəsi ilbəil artır. Heç vaxt büdcədə kəsir yaranmayıb. Müharibə veteranlarına verilən pul bir aylıq xərcləri ödəmir. Çünki bu müavinət təyin olunandan sonra ərzağın da, suyun da, işığın da qiyməti qalxıb. Mümkünsə bu vəsaitin, heç olmasa, 130 manata çatdırılmasını təmin edək".

**"Partiyalara ayrılan vəsait artırılmalıdır..."**

**Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev partiyalara ayrılan vəsaitin bölgüsündən şikayətlənib, polis və FHN əməkdaşlarının maaşının artırılmasını təklif edib:** "Siyasi partiyalara ayrılan vəsait çox ədalətsiz bölüşdürülür, vəsait daha çox hakim partiyaya çatır. Dövlət büdcəsindən ayrılan vəsait partiyaların deputatlarının sayına görə partiyalar arasında bölüşdürülür. Əslində, azlıqda olan partiyalara daha çox vəsait ayrılmalıdır. Eyni zamanda dövlət büdcəsində QHT üçün nəzərdə tutulan vəsaitlərin də artırılmasına ehtiyac var". Deputat qeyd edib ki, polislərdən aşağı zabit heyətinin maaşının da iki dəfə artırılmasına ehtiyac var: "Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının da maaşı artırılmalıdır, onların maaşı aşağıdır".

**"Niyə indiyə qədər qəbul olunmur?"**

**Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli "Hərbi qulluqçuların statusu haqqında" qanunun tezliklə qəbulunu istəyib.** Vurğulayıb ki, "Hərbi qulluqçuların statusu haqqında" qanun 1991-ci ildə qəbul edilib: "Yeni qanun layihəsi parlamentdə hazırlanıb, ancaq niyə indiyə qədər qəbul olunmur?". T.Kərimli deyib ki, yeni qanunda hərbi qulluqçular üçün bir çox təminatlar, güzəştlər nəzərdə tutulub: "Həmin qanunun qəbul edilməsini zəruri sayıram".

**"Bir avtomat darağı neçəyədir?"**

**Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov qeyd edib ki, müdafiə və təhlükəsizlik üçün gələn il büdcədən 4,5 milyard manat ayrılıb:** "Biz bu vəsaitin digər istiqamətlərə ayrılmasını istərdik, amma necə edək ki, Ermənistan kimi qonşumuz var. Müharibə iqtisadi baxımdan asan başa gəlməyib. Bir avtomat darağı neçəyədir? Bunu mənə açıqladılar, onu demək istəmirəm. Hələ başqa silahlar, sursatlar və texnikanı demirəm. Bunun qarşılığında qalib olduğumuz Vətən müharibəsindən sonra hökumətin belə bir büdcə təqdim etməsi böyük nailiyyətdir".

İsmayıl Qocayev

# Amnistiya Aktının icrası ilə bağlı heç bir boşluğa yol verilə bilməz



**Amnistiya ilə bağlı daxil olan müraciətlər araşdırılacaq, qanunsuzluq aşkar edilərsə, aidiyyəti üzrə tədbir görüləcək.**

Trend-in məlumatına görə, bunu Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova 8 noyabr - Zəfər Günü münasibətilə elan olunmuş Amnistiya Aktına həsr edilmiş "Dövlətimizin humanist siyasətinin növbəti təzahürü" mövzusunda KİV-lərin iştirakı ilə dəyirmi masada çıxışı zamanı deyib.

Onun sözlərinə görə, prosesə ciddi nəzarət tətbiq edilir: "Əməkdaşlarımız tərəfindən prosesdə heç bir boşluğa yol verilmir. Belə bir durum aşkarlanarsa, həmin əməkdaşlar barəsində tədbir görüləcək".

Qeyd edək ki, noyabrın 5-də Milli Məclis Zəfər Günü ilə bağlı amnistiya elan edilməsi haqqında qanun layihəsini təsdiqləyib. Qərar qəbul edilən gündən qüvvəyə minib. Aktın 17 min məhkuma şamil edilməsi gözlənilir.

# Pensiya yaşını artırmaqla balans pozulub

## Zahid Oruc hökumətdən enerji və kommunal tariflərin, manatın kursunun dəyişməyəcəyinə zəmanət istəyib



**"1990-cı illərdə pensiyaçılar əhalinin 8,8 faizini təşkil edirdi, indi isə bu göstərici daha aşağıdır".**

**Bunu Milli Məclisdə 2022-ci ilin dövlət büdcəsinin müzakirəsi zamanı İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib. Deputat deyib ki, dünya ölkələrində bu baxımdan orta göstərici 20 faizdir:**

"Biz pensiya yaşını artırmışıq, bu sahədə balans müəyyən qədər pozulub". Z.Oruc hökumətdən enerji və kommunal tariflərin, manatın kursunun dəyişməyəcəyinə zəmanət istəyib: "Azərbaycan vətəndaşları gələn ilin dövlət büdcəsinin təqdimatından sonra enerji və kommunal tariflərin, manatın kursunun dəyişməyəcəyi baxımından zəmanət verilməsini gözləyir. Hökumətin bununla bağlı zəmanət verməsi yaxşı olardı".

**Zahid Oruc hökumətin Bakının yüklənməsinin qarşısını almaq üçün hansı addımlar atacağı ilə də maraqlanıb:** "Azərbaycanda əhalinin 30 faizindən çoxu paytaxtda yaşayır. Kommunal xidmətlərin 40 faizə qədəri Bakıda istifadə edilir. Bakının yüklənməsi iqtisadi, sosial, nəqliyyat və digər problemlər doğurur. Bakının yüklənməsi artıq sosial-psixoloji fenomenə çevrilib və cəmiyyəti hökumətin bu sahədə atacağı addımlar maraqlandırır".

Maliyyə naziri Samir Şərifov enerji və kommunal tariflərə nə üçün zəmanət verilmədiyinə aydınlıq gətirib. Nazir bildirib ki, bu gün Azərbaycana bir sıra məhsullar idxal olunur: "O qiymətlərin formalaşmasında Azərbaycan hökuməti hər hansı formada iştirak edə bilir? Kommunal sahədə də idxal olunan hansısa məhsullar var. Fərz edək ki, quyuların qazılması üçün mallar idxal olunur. Bunların qiymətinin dəyişməsi istər-istəməz maya dəyərinin dəyişməsinə təsir göstərir. Maya dəyəri dəyişirsə, yəqin ki, o məhsulu satan təşkilat bunu satdığı məhsulun qiymətində əks etdirməlidir".

Neftin qiyməti dünyada ucuzlaşan zaman Azərbaycanda benzin, dizel və digər məhsulların qiymətinin nə üçün bir dəfə belə enməməsinə, ancaq neft bahalaşanda bu məhsulların qiymətinin artmasına gəlincə isə S.Şərifov qeyd edib ki, ilkin mərhələdə neftin qiyməti o qədər aşağı səviyyədə tutulub ki, ucuzlaşanda da bunu ucuzlaşdırmırdılar: "Bizdə olan qiymətlər dünyada olan qiymətlərdən xeyli aşağıdır. Məsələn, qazın qiyməti dünyada, Avropada necədir? Bizdən 5-7 dəfə yüksəkdir. Amma Azərbaycan dövləti qazın qiymətinin kəskin şəkildə artırılmasına imkan vermir. Çalışır ki, imkan daxilində bu qiymətləri yumşaltsın. Lakin iqtisadiyyatın reallıqları var. Boru xaricdən gətirilirsə, borunun qiyməti artırılırsa, istifadə edilən hansısa kimyəvi maddələrin qiyməti artırsa, bu da maya dəyərinə təsir göstərir".

**İsmayıl**

# Londonda Bakı və Ankaraya qarşı yeni cəbhə: *Milli Şuranın yer aldığı planın hədəfi nədir?*

**- Britaniya parlamentinin İcmalar Palatasında "erməni soyqırımı"nın tanınması ilə bağlı qanun layihəsi gündəmə gətirildi;**

**- Azərbaycanın radikal müxalifəti - "Milli Şura" adlanan qurumun rəhbəri Cəmil Həsənli, eləcə də fəalları Qubad İbadoğlu, Gültəkin Hacıbəyli və digərləri Londonda bir araya gəliblər;**



Bu iki hadisə arasında ilk baxışdan əlaqə görünməsə də, əslində dərin bağlar var: Erməni diasporu/lobbisinin də yer aldığı anti-Azərbaycan şəbkəsi Bakı və Ankaraya qarşı yeni hücum kampaniyasına start verir və bu dəfə mərkəz London seçilib.

Radikalların Londona səfərinin məqsədi "Pandora sənədləri" ilə bağlı "faktlar toplamaq və Britaniyanın rəsmi dairələrinin diqqətinə çatdırmaq"dan ibarətdir. Cəmil Həsənli bildirir ki, "Böyük Britaniyanın diqqətini "Pandora sənədləri"nə çəkmək istəyirlər".

Niyə Britaniya, niyə London?

Bu sualın cavab axtarışına əvvəldən - erməni diasporu/lobbisinin Bakıya qarşı məkrli planlarından başlamaq lazımdır. Hələ 2016-cı ilin "aprel müharibəsi"ndə - I Qarabağ müharibəsindən sonra Azərbaycanın qələbə qazandığı ilk döyüşdə erməni mediası yazırdı:

"Azərbaycan Rusiyadan, İsraildən və bir çox ölkədən rahat şəkildə silah alaraq ordusunu gücləndirdi. Amma bizim hakimiyyətimiz buna qarşı heç nə edə bilmədi, ən yaxşı halda susdular. Ermənistanda hakimiyyət artıq çoxdandır ölkənin təhlükəsizliyi məsələsini diasporun çiyinlərinə yükləyib. Hansı ki, diaspor Azərbaycana qarşı demokratiya çağırışları ilə dünyanın diqqətini bura cəlb edəcək və rəsmi Bakının qollarını qandallayacaqdılar. Bizə söz verdilər ki, Bakıya qarşı ən sərt sanksiyalar tətbiq olunacaq. Haradadır o sanksiyalar?! Onlar yoxdur".

Bu, Azərbaycana qarşı müxtəlif adlar altında illərdir aparılan kampaniyanın əsl hədəfinin etirafı hesab oluna bilər. "Aprel müharibəsi"ndə Vətən müharibəsinin məşqini edən Azərbaycan 2020-ci ildə 44 günlük müharibə ilə torpaqlarını azad etdi. Bu qələbə beynəlxalq siyasəti hörümçək toru kimi bürümüş erməni lobbisinin, onu müdafiə edən anti-Azərbaycan şəbəkəsinin də məğlubiyyəti deməkdir. Nə Ermənistan, nə erməni diasporu/lobbisi, nə də onlara havadarlıq edən şəbəkələr Azərbaycanın, Prezident İlham Əliyevin qarşısında dayana bilmədi.

Bu qələbə Azərbaycan liderinin beynəlxalq nüfuzunun artması və Azərbaycanın qlobal platformalarda mövqelərinin güclənməsi ilə nəticələnir. Təbii ki, bu nəticələr həm də anti-Azərbaycan şəbəkəsi üçün böyük itkidir.

Eyni şəbəkə artıq klassikə çevrilmiş eyni yola əl atır: Azərbaycana qarşı qarayaxma kampaniyasının başladılması, artan beynəlxalq nüfuzunu zədələmək.

Məqsəd ermənilərin etiraf etdiyi kimi, "Bakının qollarını qandallamaq" və Ermənistanın maraqlarının təmin edilməsidir.

*Şəbəkənin tərkibi:*

- Anti-Azərbaycan qüvvələr;
- Erməni diasporu/lobbisi;
- Azərbaycanın radikal müxalifəti;
- Radikal müxalifətin Avropa paytaxtlarında yerləşmiş nümayəndələri: "bloger", "mühacir" adı altında fəaliyyət göstərən azərbaycanlılar;

Şəbəkənin fəaliyyət mexanizmi də sirr deyil: Azərbaycan haqqında mənfi rəyin yaradılması üçün ortaya atılan iddialar bütün iştirakçılar tərəfindən təkrar formada tirajlanır.

Vətən müharibəsinin ildönümü ərəfəsində qondarma "Pandora sənədləri" ortaya atıldı və məqsəd bu yalan ətrafında daha çox kütlə toplamaq, cəmiyyətin diqqətini ölkə daxilində qabardılan "süni problemlərə" yönəltmək, hakimiyyəti, həm də hakimiyyət üzərindən dövlətin böyük Zəfərini kölgələməkdir. Lakin nəticə vermədi.

Prezident İlham Əliyev də ötən ay İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində bildirdi ki, bu çirkin hekayələrin onun və Azərbaycan xalqı üçün heç bir mənası yoxdur, bu informasiya təxribatları da əvvəlkilər kimi iflasa uğradı.

"Pandora sənədləri"nin ortaya atılmasına, müxtəlif şəbəkələr üzərindən kütləvi şəkildə tirajlanmasına baxmayaraq, Azərbaycan cəmiyyətinin bu yalana reaksiya verməməsi də bunu təsdiq edir. Və məhz iflasın müşahidə edildiyi, yalanın heç bir nəticə vermədiyi vaxt mərkəz Vaşinqtondan Londona köçürülür, proses yenidən təkrarlanır.

Bu dəfə məqsəd yalana kütlənin yox, Azərbaycanın tərəfdaşlarının, haqq işimizdə ölkəmizə dəstək verənlərin inandırılmasıdır. Cəmil Həsənli də açıq şəkildə etiraf edir ki, britaniyalı rəsmiləri bu yalana inandırmaq üçün Londona gediblər.

Burada "niyə London" sualının cavabı da aydınlaşır: Böyük Britaniya Vətən müharibəsində Azərbaycana dəstək verən əsas ölkələrdən biridir, hətta müharibənin gedişinə təsir etdiyini də deyə bilərik; Müharibənin gedişində BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə "hərbi əməliyyatların dərhal dayandırılması, proseslərə üçüncü ölkələrin müdaxiləsinin yolverilməzliyi və "münaqişə zonasında terrorçuların mövcudluğu"ndan ibarət qətnamənin qəbul edilməsi cəhdi oldu və bu baş tutsaydı, BMT TŞ-nin Azərbaycanın işğal edilmiş torpaqları ilə bağlı icra edilməyən qətnamələrindən fərqli olaraq, dərhal həyata keçiriləcəkdi; Məhz Böyük Britaniya prosesin qarşısını aldı və Azərbaycanın haqlı mövqeyini sona qədər müdafiə etdi;

"Pandora yalanları" ilə Azərbaycanın qələbəsinə və artan nüfuzuna təsir edən bilməyən anti-Azərbaycan şəbəkəsi görünür Bakıya dəstək verən Londonun mövqeyini dəyişdirməyə çalışır. Buna paralel olaraq, qondarma "erməni soyqırımı" məsələsi üzərindən London-Ankara yoluna tramplinlər düzürlər. Hadisələrin inkişafı da məkrli planı anlamağa imkan verir:

- 9 noyabrda - Vətən müharibəsinin birinci ildönümündə Britaniya parlamentində erməni lobbisi qondarma "erməni soyqırımı"nı müzakirə çıxarır;
- Qondarma soyqırımı ilə bağlı "qanun layihəsi"nin ikinci oxunuşu dekabrın 10-da - Azərbaycanın qələbədən sonra Türkiyə prezidentinin də iştirakı ilə keçirdiyi Zəfər Paradının ildönümü tarixinə təyin edilir;
- Radikal müxalifət - Cəmil Həsənli, Qubadlı İbadoğlu, Gültəkin Hacıbəyli və digərləri Londonda toplanır və britaniyalı rəsmiləri "Pandora yalanları"na inandırmaq üçün əllərindən gələni edirlər;

Hədəf aydındır: Londonda Bakının "vahiməli" obrazını formalaşdırmaq, Azərbaycan-Britaniya münasibətlərini pozmaq, London-Bakı, London-Ankara xəttində çatlar yaratmaq;

Prosesdə eyni hədəfə vuran bütün tərəflərin maraqları var:

Anti-Azərbaycan şəbəkəsi: qələbə ilə daha da güclənən Bakının müstəqil siyasət yürütmək gücünü zəiflətmək istəyir;

Erməni diasporu/lobbisi: "Bakının qollarını qandallamaq", Ermənistanı qorumaq və erməni maraqlarını təmin etmək istəyir;

Müxalifət adına çıxış edən anti-milli qrup: anti-Azərbaycan kampaniyasına ayrılan pullardan pay əldə etmək, öz "siyasi mövcudluqlarını" qorumaq istəyir və "maraqları uğrunda şeytanla da əməkdaşlıq" prinsipindən çıxış edirlər;

Və bununla həm də əslində kim olduqlarını, kimə işlədiklərini də ifşa edirlər.

**Asif Nərimanlı**



# Yenə Ermənistanın maraqlarını güdürlər

## Avropa İttifaqının niyyətlərinin arxasında böyük ehtimalla ermənipərəst Fransa dayanır

**İsmayıl Qocayev**

**Avropa İttifaqının Xarici siyasət və Təhlükəsizlik Məsələləri üzrə Ali Nümayəndəsinin mətbuat katibi Peter Stano Ermənistan və Azərbaycan arasında atəşkəsin imzalanmasının ildönümü ilə bağlı bəyanat yayıb. Bəyanatda vurğulanıb ki, danışıqlar yolu ilə hərtərəfli və dayanıqlı həllə doğru irəliləmək üçün bir çox məsələlər həll edilməlidir.**

Aİ rəsmisi tərəfləri atəşkəs rejiminə ciddi riayət etməyə, minaların təmizlənməsi üzrə tam əməkdaşlığa və sərhədyanı ərazilərdə gərginliyin azaldılmasına çağırıb. Vurğulanıb ki, Avropa İttifaqı tərəflərin ehtiyac duyduğu texniki yardım göstərməklə sərhədlərin delimitasiya və demarkasiyasını dəstəkləməyə hazırdır və Cənubi Qafqazda əlaqələri və iqtisadi əməkdaşlığı təşviq edir. Aİ-nin Ali Nümayəndəsinin sözçüsü qeyd edib ki, üç onillikdən artıq davam edən münaqişə və iztirablara son qoymaq üçün hərtərəfli nizamlanma lazımdır: "Bu məqsədə nail olmaq üçün Aİ müvafiq beynəlxalq tərəfdaşlarla, xüsusilə də ATƏT-in Minsk qrupunun həmsədrləri ilə fəal təmasda olmağa davam edəcək, Ermənistan və Azərbaycan arasındakı bütün problemlərin hərtərəfli həlli üzərində işləyərək mandatlarını yerinə yetirməkdə onlara tam dəstək verəcək". Aİ-nin xüsusi nümayəndəsi Azərbaycan və Ermənistanı dayanıqlı sülh üçün səy göstərməyə çağırıb.

> *"Təşkilat bütün mümkün vasitələrlə bu regionda cərəyan edən geopolitik, geostrateji və geoiqtisadi proseslərdə əsas iştirakçılardan birinə çevrilməyə can atır"*

**Avropa İttifaqının "fəallığını" "Şərq"ə dəyərləndirən siyasi şərhçi Elçin Xalidbəyli deyib ki, Aİ-nin Cənubi Qafqaz siyasəti ikili standartlara indeksləşib. Analitikin sözlərinə görə, beynəlxalq qurum daha çox Ermənistanın maraqlarını ifadə etməyə üstünlük verir:** "Bir müddət öncə Avropa Birliyinin Ermənistana 2,4 milyard avro maliyyə yardımı ayırması da bunu təsdiqləyir. Əgər Avropa Birliyi neytral mövqeli beynəlxalq qurum olsaydı, onda Azərbaycana da elə Ermənistana ayırdığı maliyyə yardımına yaxın məbləğdə dəstək verərdi. Halbuki, Ermənistan ərazisində hər hansı savaş olmayıb. Əksinə, Ermənistan Azərbaycanın savaş bölgəsindən uzaqda yerləşən şəhərlərinə raket zərbəsi endirərək, ciddi ziyan vurub. Üstəlik, Ermənistanın 30 il ərzində dağıtdığı ərazilərin bərpasına Azərbaycan indi milyardlarla dollar xərcləmək məcburiyyətindədir. Ancaq buna baxmayaraq, Avropa İttifaqı maliyyə yardımını məhz Ermənistana ayırıb. Göründüyü kimi, Avropa Birliyi öz açıqlamasında qətiyyən səmimi deyil. Üstəlik, bu qurum bir tərəfdən üçtərəfli anlaşmaya riayət olunmasına çağırır. Digər tərəfdənsə, üçtərəfli anlaşmanın imzalanmasından sonra Azərbaycan ərazisinə keçərək, həbs olunmuş erməni diversant-terrorçuların geri qaytarılmasını gündəmə gətirir. Bu zaman rəsmi İrəvanı həmin erməni diversant-terrorçuları Azərbaycan ərazisinə göndərməklə, üçtərəfli anlaşmanı kobud şəkildə pozmasına görə qınamağı da vacib saymır".

**E.Xalidbəyli hesab edir ki, Avropa İttifaqının Cənubi Qafqaz regionunda müəyyən maraqları olmamış deyil:** "Xüsusilə, Avropa İttifaqı Cənubi Qafqazda nəqliyyat-kommunikasiya xətlərinin açılmasından, iqtisadi-ticari münasibətlərin bərpasından faydalanmağa can atır. Hələlik, Avropa İttifaqı da ATƏT-in Minsk qrupu həmsədrləri kimi Cənubi Qafqazda cərəyan edən proseslərdən kənarda qalıb. Ona görə də bütün mümkün vasitələrlə bu regionda cərəyan edən geopolitik, geostrateji və geoiqtisadi proseslərdə əsas iştirakçılardan birinə çevrilməyə can atır. Elə bəyanatda da bu niyyət diqqətdən yayınmır. Belə ki, açıqlamada Avropa İttifaqı Cənubi Qafqazda sülhün və əmin-amanlığın dayanıqlı olması üçün bir çox məsələlərin həllinin vacibliyini, yenidən regionda Minsk qrupunun fəaliyyətinin gücləndirilməsini qabartmağa cəhd göstərilir".

Politoloq qeyd edib ki, Avropa İttifaqının Minsk qrupu ilə bağlı məsələni ön plana çıxartmaq cəhdlərinin arxasında böyük ehtimalla ermənipərəst Fransa dayanır: "Çünki Fransa istənilən halda, Minsk qrupunun fəaliyyətinin bərpasında maraqlıdır. Bu məqsədlə hətta Avropa İttifaqından belə istifadə etməyə çalışır. Ancaq bu məsələdə Minsk qrupunun həmsədrlərindən olan Rusiyanın mövqeyi olduqca böyük maraq doğurur. Rusiya Minsk qrupunun fəaliyyətinin bərpasına qarşı çıxmır. Hətta buna tərəfdar olduğunu qabartmağa belə cəhd göstərir. Ancaq Rusiya Cənubi Qafqaz regionunda cərəyan edən proseslərə nə Avropa İttifaqını, nə də Minsk qrupunu (ABŞ və Fransanı) ortaq etmək istəyir. Ona görə də Kreml hesab edir ki, Minsk qrupu Cənubi Qafqazda yalnız sosial-iqtisadi və humanitar məsələlərlə məşğul ola bilər. Və bu, Minsk qrupunu oyundankənar vəziyyətə salmaq istəyindən başqa bir şey deyil. Bütün bunlar onu göstərir ki, Avropa İttifaqının Cənubi Qafqazda, o cümlədən də Azərbaycan və Ermənistan arasında olan problemlərin həllində ciddi rolu ola bilməz. Bu qurumun regional proseslərə qatılması daha çox ziyan verə bilər. Avropa İttifaqının Minsk qrupunun fəaliyyətinin bərpasına yönəlik çağırışları isə daha çox Fransanın maraqlarına cavab verməklə yanaşı, regional proseslərə yalnız problem yarada biləcək məqamdır".



# Gələn ildən...

## Elektrik mühərrikli avtomobillərin satışı ƏDV-dən azad ediləcək

**Azərbaycanda gələn ildən elektrik mühərrikli avtomobillərin satışı ƏDV-dən azad edilməsi nəzərdə tutulur.**

Bunu iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov noyabrın 11-də Milli Məclisin Gənclər və idman, Əmək və sosial siyasət, Aqrar siyasət, Regional məsələlər, Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin birgə iclasında gələn ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi zamanı deyib.

Deputatın elektrik avtomobillərinin idxalına güzəştlərin tətbiqi barədə təklifinə münasibət bildirən nazir müavini bildirib ki, 2019-cu ildən elektrik mühərrikli avtomobillərin idxalı ƏDV-dən azaddır.

"Elektrik mühərrikli avtomobillərin ölkə daxilində satışının da gələn ildən ƏDV-dən azad edilməsi nəzərdə tutulur. Həmçinin, onların doldurulma məntəqələri də ƏDV-dən azad ediləcək" - deyə, S.Ələkbərov qeyd edib.

# Mütləq "Hökumət saatı" olmalıdır

## Razi Nurullayev nazirlərin üzünü görə bilmədiklərindən şikayətlənib



**"Biz hökumət nümayəndələrini ayda-ildə bir dəfə görə, sual verə bilərik. Əslində, dünya ölkələrində olduğu kimi bizdə də həftədə, ayda bir dəfə "Hökumət saatı" olmalıdır".**

*Bunu Milli Məclisdə "2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deputat Razi Nurullayev bildirib. Deputat deyib ki, büdcə müzakirələrində komitədə və parlamentdə 5 dəqiqə danışmaq imkanı olur:* "Ancaq biz bütün sualları 5 dəqiqəyə verə, danışa bilmərik. Ona görə də mütləq "Hökumət saatı" olmalıdır". R.Nurullayev qeyd edib ki, Füzuli Beynəlxalq Hava Limanı 8 aya istifadəyə verilib, Qarabağda yollar da ildırım sürəti ilə tikilir: "Bəs niyə digər regionlarda işlər belə sürətlə görülmür?".

**Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli isə deyib ki, hökumətə deputat sorğuları göndərilə bilər:** "Eyni zamanda deputatlar nazirlərlə, o cümlədən Samir Şərifovla görüşə bilər. Bizim parlament ənənəmizdə "Hökumət saatı" yoxdur. Daha innovativ yollar tapıla bilər".

**İsmayıl**

# Paşinyan sülhə getmək yolundan çəkilməyəcək

## Hər ölkədə müxalifətin işi hakimiyyəti tənqid etmək, ona qarşı sivil yollarla mübarizədir



Aynurə Pənahqızı

**2020-ci il 10 noyabr üçtərəfli Bəyannaməsində nəzərdə tutulan məsələlər həyata keçirildikcə Ermənistandakı revanşist qüvvələr hökumətə daha güclü təzyiq göstərməyə çalışırlar. Erməni mediası həmin qüvvələrin çağırışı ilə dünən Respublika meydanında keçirilən etiraz aksiyası zamanı gərginlik yaşandığını bildirib.**

”Nikol satqındır” şüarını səsləndirən bir qrup iştirakçı hərəkəti dayandırmağa cəhd göstərsə də, polis onları yolun hərəkət hissəsindən sıxışdırıb çıxarmaqla yanaşı, hökumət binasına çox yaxınlaşmağa da imkan verməyib. Nəticədə basabas və əlbəyaxa çəkişmə yaranıb. Dünən Ermənistan parlamentindəki ”Ayastan” müxalif fraksiyasının deputatı Qeqam Manukyan öz ”Facebook” səhifəsində ”Qarşıdurma üçün səhər saat 11:00-da Respublika meydanına gəlin. Kim gələcək? Gözləyirik. Bu gün hakimiyyət Gorus-Qafan yolunun Azərbaycanın nəzarəti altında olduğunu rəsmi şəkildə bəyan etdi. Hələ üstəlik də hökumətin üzvü bu gün Sünikə getdi və dolama yolun tikintisinin başa çatdığını açıqladı, düşmən isə dərhal trassı bağladı. Dözəcəyik? Bunun cavabını kim verəcək? Hökumət? Səhər hökumətin növbəti iclası olacaq və bizim sual vermək hüququmuz var. Biz hökumətdən cavab tələb edəcəyik” çağırışını edib. Manukyan bu müraciəti Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın gecəyarısı Azərbaycanın Qafan-Gorus yolunda nəzarət-buraxılış məntəqəsi quracağı barədə verdiyi bəyanatdan sonra paylaşıb. Bir müddət əvvəl keçirilən mitinqdə isə Manukyanın üzvü olduğu ”Ayastan” blokunun rəhbəri, Ermənistanın keçmiş prezidenti Robert Koçaryan ya seçkilər, ya da ki, barikadalar yolu ilə hakimiyyəti devirməsinin bir neçə həftənin işi olduğunu deyib. **Mövzu ilə bağlı VHP-nin Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli deyib ki, Azərbaycanla normal, ağla, siyasi reallığa söykənən münasibətlər gündəmə gələndə hər zaman Ermənistan siyasi düşərgəsində gərginlik yaranır:** ”Diqqət edin, bir neçə gün öncə Ermənistan mətbuatında Azərbaycanla Ermənistan arasında tezliklə sülh müqaviləsinin imzalanacağına dair sensasiyalı məlumat yayıldı. Həmin məlumat Ermənistanın əksər KİV-i tərəfindən tirajlandı. Sonra isə Kremlə yaxın ”RİA Novosti”nin də təsdiqlədiyi həmin məlumatda deyilirdi ki, noyabrın 9-da, ya da 10-da Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan Moskvada görüşəcək və Vladimir Putinin iştirakı ilə iki hissədən ibarət sülh müqaviləsi imzalayacaqlar. Rusiyanın vasitəçiliyi ilə imzalanacağı gözlənilən yeni sənədlərin təfərrüatı haqda hələ dəqiq bilgilər olmasa da, erməni müxalifəti mitinqlərə qərar verdi. Bəlkə də düşünmək olar ki, qeyri-adi heç nə baş vermir. Hər ölkədə müxalifətin işi hakimiyyəti tənqid etmək, ona qarşı sivil yollarla mübarizədir. Ermənistanın ikinci prezidenti Robert Koçaryanın rəhbərlik etdiyi müxalif ”Hayastan” bloku mitinq qərarını belə izah edir ki, hakimiyyət erməni xalqının və dövlətçiliyin maraqlarına xidmət etmir. Müxalifət bloku hazırkı hakimiyyətin Ermənistanın yeni ərazilərini Azərbaycana verəcəyindən narahat olduqlarını qeyd edir. Ancaq hesab edirəm ki, Paşinyan sülhə getmək yolundan çəkilməyəcək”.

# Neftin qiyməti 90 dollara yaxınlaşır

## Bu, büdcənin daha sabit, daha dayanıqlı olması üçün əsas təminatdır



**2022-ci ilin dövlət büdcəsi riskləri olmayan bir büdcədir. Son illər büdcə stabilləşib və tarazlı hala gəlib.**

Bunu Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin və İntizam komissiyasının birgə iclasında büdcə müzakirələri zamanı deyib.

Z.Əsgərov bildirib ki, büdcə müzakirəsi müharibədən sonrakı bir dövrdə aparılsa da, yenə də büdcə sosial yönümlüdür: ”Müharibədən sonra büdcəmizin tarazlı olması və ölkədə iqtisadi artımın qeydə alınması çox ciddi məsələdir. Müharibə bizə böyük vəsait hesabına başa gəlib, amma bununla belə Azərbaycanın bu cür büdcəsinin olması çox müsbət haldır. Büdcədə təhlükəsizlik məsələləri üçün kifayət qədər vəsait ayrılıb. Müdafiə və təhlükəsizlik üçün gələn il büdcədən 4,5 milyard manat nəzərdə tutulub. Biz bu vəsaitin digər istiqamətlərə ayrılmasını istərdik, amma nə edək ki, Ermənistan kimi qonşumuz var. Təhlükəsizlik orqanlarının fəaliyyəti həmişə yüksək səviyyədə olmalıdır” - deyə Z.Əsgərov bildirib.

Qeyd edək ki, 2022-ci ildə Azərbaycan dövlət büdcəsinin gəlirləri, rəsmi proqnozlara əsasən, 2021-ci illə müqayisədə 5,4 faiz artaraq 26,82 milyard manat təşkil edəcək. Dövlət büdcəsinin xərcləri isə gələn il 29,89 milyard manata bərabər olacaq. Bu, 2021-ci illə müqayisədə 4,7 faiz çoxdur.

**Mövzu ilə bağlı iqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycanda büdcə gəlirlərinin ümumiyyətlə, sabitləşdirilmiş və balanslaşdırılmış olması neft qiymətlərindən asılıdır. Ekspert qeyd edib ki, son illərdə neft qiymətlərində bir sabitlik müşahidə olunur, hətta yüksəlmə müşahidə olunur:** ”Bu il məsələn, son 5-6 ildə tarixi maksimumlarını yaşayırıq. Azərbaycan neftinin qiyməti 87 dollar idi. İndi neft qiymətləri 90 dollara yaxınlaşır. Bu, büdcənin daha sabit, daha dayanıqlı olması üçün əsas təminatdır. Yəni büdcənin dayanıqlı olmasının əsas səbəbi iqtisadi aktivlik yox, məhz neft qiymətləridir. Təəssüf ki, hələ də Azərbaycan büdcəsinin tən yarısı Neft Fondundan, transfertlərdən və neftdən gələn gəlirdən asılıdır. Bu mənada bəli, neftin qiyməti nə qədər yüksəkdirsə, büdcənin sabitləşməsi və balanslaşdırılması bir o qədər asan həyata keçirilən məsələdir”.

**Aynurə Pənahqızı**

# "Bu qələbə bizə çox lazım idi"

## “10 noyabr Qafqazın düzənini, siyasi oyunçuları dəyişdirdi”



**Ötən gün 10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış üçtərəfli bəyanatın bir ili tamam oldu. Bu bəyanata əsasən İkinci Qarabağ müharibəsindən qalib ayrılan Azərbaycan üç rayonun itkisiz, qansız qaytarılmasına, Zəngəzur koridorunun açılması üçün imkan yaradılmasına, ən əsası Ermənistanın kapitulyasiyasına nail oldu. Maraqlıdır, bu bəyanatın tarixdə mövcud olan digər kapitulyasiya aktlarından fərqi nədir? Bəyanat rəsmi Bakının gələcək taleyinə hansı üstünlüklər vəd edir?**

Mövzunu ”Şərq”ə şərh edən siyasi elmlər namizədi, politoloq Cümşüd Nuriyev məlum bəyanatın tarixdə analoqu olmadığını bildirib: ”Adətən kapitulyasiya aktları ikitərəfli olur. Və bu aktlar müharibədən sonra danışıqların nəticəsində əldə olunur. Amma Azərbaycan ilk dəfədir ki, məhz müharibənin gedişi dönəmində belə bir aktın imzalanmasına nail ola bildi. Burda üçüncü tərəf kimi Rusiyanın iştirakı da bir yenilikdir. Rəsmi Moskva da Ermənistanın kapitulyasiyanı qəbul etdi. Bu sazişin əhəmiyyətli tərəflərini saymaqla bitməz. Ən böyük siyasi əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan bir dövlət kimi öz siyasi gücünü, iradəsini ortaya qoydu. 200 ildən sonra Azərbaycan itirilmiş torpaqlarının böyük qismini qaytara bildi. Bundan başqa, rəsmi Bakı yeni müharibə taktikasını gündəmə gətirdi, hərbi qüdrətini göstərdi. Azərbaycan prezidenti Azərbaycan Ordusu və Azərbaycan xalqının birliyini göstərdi”.

*Ekspertin sözlərinə görə, müharibədən sonra Azərbaycan dövlətçiliyində yeni bir məsələ gündəmə gəlib:* ”Bu, dövlətin resurslarının onun ərazi bütövlüyünün bərpası üçün istifadə olunmasıdır. Azərbaycan 10 Noyabr sazişindən sonra Qafqazın düzənini, siyasi oyunçuları dəyişdi. Eyni zamanda Qafqazın yeni dizaynını formalaşdırmaq mövzusunu gündəmə gətirdi. Əgər indiyə qədər Azərbaycan burda ancaq tranzit bir ölkə idisə, bundan sonra tranzit ölkədən ixrac edən ölkəyə çevrildi. Burda Zəngəzur dəhlizinin açılması gündəmə gəlir. Üçtərəfli bəyanatda bu məsələ də öz əksini tapıb. Bu o deməkdir ki, Azərbaycan öz Naxçıvanı ilə 103 ildən sonra birləşir. Türkiyə ilə torpaq əlaqəsi olur. Gələcək bütün türkdilli dövlətlərin toplusu yaranır. Azərbaycan dünyaya açılan bir dövlət kimi tək Qafqazın yox, MDB məkanının mühüm faktoruna çevrilir. Bu bəyanatın müsbət mənəvi və ideoloji tərəflərini saymaqla bitməz. Azərbaycan bütün cəbhələrdə qələbə qazandı. Bu qələbə bizə çox lazım idi. Tapdalanmış qürurumuz ayağa qalxdı, millətə, vətənə qarşı sevgi yüksəldi, bayrağımıza qarşı içimizdə böyük bir rəğbət yarandı. Bundan sonra Azərbaycana hər hansı bir dövlət dirsək göstərsə, xalq yumruq kimi bir olub, onu əzməyə qadirdir. Bütün bunlar 10 Noyabr sazişindən sonra gündəmdə olan vacib məqamlardır”.

**Politoloq ölkəmizdə bu sazişdən sonra dövlətə inamın yüksək dərəcədə artdığını vurğulayıb:** ”Məşhur Çin filosofu var - Lao Tszı. İdarəetmə nəzəriyyəsinin yaradıcılarından biridir. O deyib ki, dövlətin əsas funksiyaları əhalinin müdafiə qabiliyyətini təşkil etmək, onun sosial məsələlərini həll etmək, bir də əhalinin ona olan inamını təmin etməkdir. 10 Noyabr bəyanatı ilə dövlətin əhalinin təhlükəsizliyinin qorunması baxımından çox ciddi bir addım atıldı, eyni zamanda, Azərbaycan xalqının iqtidarına olan inamı möhkəmləndi. Bundan öncə yaranmış müəyyən inamsızlıq aradan qaldırıldı”.

**Günəş Mərd**

# Ermənilərі yenə Rusiya xilas etdi

## Laçın istiqamətində təxribat törətməyə cəhd edən düşmənə aman verilmədi



**Dünən düşmən Ermənistan-Azərbaycan dövlət sərhədinin Laçın rayonu istiqamətində növbəti dəfə təxribat törətməyə cəhd göstərib.**

Azərbaycan Müdafiə Nazirliyindən verilən məlumata görə, noyabrın 9-u günorta saatlarında Ermənistan Silahlı Qüvvələrinin 60-a yaxın şəxsi heyəti iki hərbi yük avtomobilində Laçın rayonunun Qaragöl gölü istiqamətində hərəkət edib:

”Azərbaycan Ordusunun mövqelərinə aparan yol üzərində yerləşiblər. Qəsdən hərbi qarşıdurma yaratmaq məqsədilə erməni tərəfi metal konstruksiyalardan hazırlanmış səbətlərdən istifadə edib. Azərbaycan Ordusunun sərhədin bu sahəsindəki mövqelərarası yolunu bağlayaraq ərazidə möhkəmlənməyə səy göstəriblər. Görülmüş tədbirlər nəticəsində Azərbaycan Ordusu 60-a yaxın erməni hərbçisini mühasirəyə alıb. Erməni hərbçilərinin bütün hərəkətləri məhdudlaşdırılıb və səhər saatlarında Rusiya tərəfinin xahişini nəzərə alaraq, Azərbaycan hərbçiləri onların geri dönməsinə şərait yaradıb. Bildiririk ki, Ermənistan tərəfinin növbəti hərbi təxribatı iflasa uğrayıb”.

*Son hadisədən düşmən tərəf heç nə qazanmadı, əksinə, cəmiyyətdə mövcud olan çatlar bir az da dərinləşdi*

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bəyan edib ki, əgər buna oxşar təxribatlar gələcəkdə təkrarlanarsa, görəcəyimiz tədbirlər daha sərt və təsirli olacaq: ”Ümid edirik ki, Ermənistan ordusunun növbəti biabırçılığı ona dərs olacaq. Gələcəkdə belə təxribat xarakterli addımlara yol verilməyəcək. Azərbaycan Ordusunun şəxsi heyəti və ərazi baxımından itkimiz yoxdur. Hazırda əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır. Ermənistan-Azərbaycan dövlət sərhədində baş verən son gərginliyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür”.

**Düşmən təxribatlarını ”Şərq”ə dəyərləndirən politoloq Elçin Mirzəbəyli bildirib ki, burada bir neçə nüans var:**

”Şuşadakı atəşfəşanlıq separatçıları və onların ənənəvi, klassik himayədarlarını narahat edir. Ermənistan cəmiyyətində yaranan təşviş bu hadisələrdən sonra daha da artmaqdadır. Əslində reallıqları başa düşürlər, bəzi durumları çox təbii formada qəbul edə bilirdilər. Azərbaycan torpaqlarının işğalı prosesində ermənilərin təkcə törətdikləri hərbi cinayətlər deyil, eyni zamanda heç kəs Azərbaycan xalqının qürurunun aşağılanmasına yönəlmiş hərəkətləri unutmur. Ermənistanın da siyasi hakimiyyəti və hərbi komandanlığı ola bilsin ki, düşmən cəmiyyətindəki hakimiyyətə qarşı yönəlmiş müəyyən aqressiyanı aradan qaldırmaq üçün belə addımlar atıb. Digər mesaj isə Azərbaycanın ictimai rəyinə yönəlib. Çünki Zəfər coşqusu cəmiyyətimizdəki həmrəyliyi daha da gücləndirir. Həmçinin bu, işğaldan azad edilmiş torpaqlarımızın yenidən qurulması, bərpası üçün, eyni zamanda cəmiyyətimizin vahid bir nöqtədən çıxış etməsi üçün stimuldur. İkinci aspektdən də bu təxribatın təməlində bu kimi sadalanan amillər dayana bilər. Amma nəticə etibarilə təxribatların hamısı Ermənistanın əleyhinə işləyir”.

**Ekspertin qənaətincə, Rusiya sülhməramlılarının mühasirəyə alınan hərbçiləri yenə də xilas etməsi artıq Ermənistan cəmiyyətində iki istiqamətdə dəyərləndiriləcək:** ”Birinci yanaşmadan dünən Rusiyanın əleyhinə etiraz aksiyası keçirənlərə cavab olaraq erməniləri yenə Rusiya xilas edib. İkinci yanaşma Azərbaycanın ”Dəmir yumruğ”u hər zaman Ermənistanın başı üzərindədir. İstənilən təxribata qarşı adekvat, həm də sərt tədbirlər həyata keçiriləcək. Düşünürəm ki, bu təxribatlarla düşmən tərəf heç nə qazanmadı, əksinə, cəmiyyətdə mövcud olan çatlar bir az da dərinləşdi”.

**Sücayət Mehti**

# Azərbaycan tarixdə qalib xalq kimi qalacaq

## İki qardaş ölkənin birliyi və dostluğu sarsılmazdır və bundan sonra da belə olacaq



**”10 noyabr Bəyanatı regionun daha sabit və firavan sabahına olan inamı artırdı”. Bu sözləri ”Şərq”ə açıqlamasında YAP Səbail rayon təşkilatının əməkdaşı Fuad Heydər deyib. Gənc fəal bildirib ki, ötən il imzalanan birgə Bəyanat 44 günlük Vətən müharibəsinin başa çatmasını və Ermənistanın bu müharibədə məğlubiyyətini rəsmiləşdirdi:**

”Ali Baş Komandan İlham Əliyevin israrlı mövqeyi nəticəsində məğlub və çıxılmaz vəziyyətə düşən Ermənistan rəhbərliyi işğal edilmiş bütün torpaqlarımızdan qeyd-şərtsiz çıxmağa məcbur oldu. Qısa müddətdə Ağdam, Laçın, Kəlbəcər rayonları qan tökülmədən qaytarıldı. Bəyanatda Qarabağa heç bir status verilmədi. 132 km uzunluğunda Azərbaycan-İran dövlət sərhədi bərpa edildi. Dövlət Sərhəd Xidmətinin hərbçiləri Azərbaycanın bütün sərhədlərində Vətənin keşiyini çəkir. Müharibə günlərində qardaş Türkiyənin açıq dəstəyi bir çoxlarının bu münaqişəyə müdaxilə cəhdlərini alt-üst etdi. Həm də Ermənistanın havadarlarına bir mesaj oldu. Türkiyədən dəstək və həmrəylik nümayişi Azərbaycan xalqını Qələbəyə ruhlandırdı. Təcavüzkar ölkə və onun hamiləri bir daha gördülər ki, Türkiyə hər zaman olduğu kimi, Azərbaycanın yanındadır və onun maraqlarını sonadək müdafiə edəcək. İki qardaş ölkə arasında ictimai-siyasi müstəvidə də əməkdaşlıq uğurla inkişaf etməkdədir”.

F.Heydər bəyan edib ki, Türkiyə-Azərbaycan birliyi, dostluğu və qardaşlığı bu gün uğurla davam edir: ”Qardaş ölkə Vətən müharibəsində olduğu kimi, bu gün də Azərbaycanın yanındadır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində, eləcə də Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun və Zəngilan rayonunda ”Dost Aqropark”ın təməlqoyma tədbirlərində iştirakı bunun bariz nümunəsidir. Prezident İlham Əliyevin və Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın Zəngilanın Ağalı kəndində mətbuata birgə bəyanatlarla çıxışları zamanı dövlətimizin başçısı bir daha bəyan etdi ki, iki qardaş ölkənin birliyi və dostluğu sarsılmazdır və bundan sonra da belə olacaq. Vətən müharibəsi Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı. Qələbənin qazanılmasında bütün Azərbaycan xalqı birlik, həmrəylik göstərdi. Artıq Azərbaycan xalqı tarixdə qalib xalq kimi qalacaq”.

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

İsmayıl Qocayev







# "İşlər çox ciddi şəkildə həyata keçirilir"

## Vüqar Bayramov: "2021-2022-ci illərdə Qarabağda aparılan bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 4,7 milyard manat vəsait ayrılacaq"

**Hazırda işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri həyata keçirilir, infrastruktur layihələri reallaşdırılır. Aparılan işlərə nəzər yetirməklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən bərpa işlərinin necə uzaq perspektivlərə hesablandığını, islahatların ən müasir dünya təcrübəsi və yeni texnologoyalar üzərində qurulduğunun şahidi olarıq. İşğaldan azad edilmiş ərazilərimizdə post-konflikt quruculuğu Azərbaycanın ümumi inkişaf strategiyası çərçivəsində həyata keçirilir.**

Qarabağ BMT-nin qəbul etdiyi davamlı inkişaf məqsədləri və 4-cü sənaye inqilabı prinsiplərinə uyğun olaraq, yerli xüsusiyyətlər, resurslar və perspektivlər nəzərə alınmaqla inkişaf etdirilir. Qarabağ iqtisadiyyatının prioritet olduğunu ötən gün Milli Məclisdə büdcə müzakirələrində çıxış edən Maliyyə naziri Samir Şərifov da deyib. Nazir bəyan edib ki, cari ildə olduğu kimi 2022-ci ildə də işğaldan azad olunmuş ərazilərin bərpası əsas prioritet olaraq qalacaq. S.Şərifov qeyd edib ki, işğaldan azad olunmuş ərazilərin tarixi simalarının qaytarılması, mədəni tarixi abidələrin bərpası, elektrik, su və yol xətlərinin çəkilməsi ilə bağlı başlanılan işlər böyük sürətlə davam edir: "Bərpa prosesi sürətli və əzəmətlidir. Dövlət başçısının tapşırığından irəli gələn bu ümdə vəzifələrin növbəti ildə də davam etdirilməsi üçün 2,2 milyard vəsait ayrılması nəzərdə tutulub. 2025-ci ilədək büdcə layihələrinin əsasını Böyük Qayıdışı təmin etmək üçün görüləcək işlər təşkil edəcək".

Xarici işlər naziri Ceyhun Bayramov da dost ölkələri azad edilmiş ərazilərin bərpasında iştirak etməyə çağırıb. Nazir vurğulayıb ki, ölkəmizin işğaldan azad edilmiş ərazilərində irimiqyaslı tikinti işləri həyata keçirilməkdədir. Onun sözlərinə görə, Azərbaycan müasir şəhərsalma üsulları, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarını tətbiq edərək, sıfırdan yeni şəhərlər və kəndlər inşa edir, bütün bu işləri öz maddi imkanları hesabına görür: "Dost ölkələrin şirkətlərinin qeyd olunan yenidənqurma işlərində iştirakı bizim üçün önəm kəsb edir. Bu kontekstdə, cari ilin sentyabrında Bakıda, eləcə də Budapeştdə baş tutmuş Türk Şurasının biznes forumları əhəmiyyət kəsb edir".

Ekspertlərin sözlərinə görə, Qarabağın inkişaf strategiyası qısa, orta və uzunmüddətli dövrü əhatə etməklə, yerli, regional, milli və beynəlxalq səviyyələrdə olan fəaliyyətləri özündə ehtiva edə bilər. Strategiyanın həyata keçirilməsi üçün idarəetmənin təşkili və dövlətin makroiqtisadi, fiskal, monetar, sosial və digər siyasət alətlərindən istifadə zəruridir. Prezidentin tapşırığı əsasında Azərbaycanda yaradılan iqtisadi siyasətin yeni strateji idarəetmə çərçivəsinə uyğun olaraq Qarabağ bölgəsi davamlı inkişaf etdirilərək ölkə həyatına qısa zamanda reinteqrasiya olunacaq. Mütəxəssislərin fikrincə, Qarabağın inkişaf strategiyası vaxt ardıcıllığı və bölgələr nəzərə alınmaqla aşağıdakı prioritetlər üzrə həyata keçirilə bilər. İlk etapda Qarabağda yol, meliorasiya, elektrik, qaz, su, kanalizasiya və s. sistemlərinin yaradılması, bərpası və inkişafı zəruridir. Eyni zamanda ərazidə sosial infrastrukturun, o cümlədən, təhsil və səhiyyənin inkişafı da vacibdir. İşğaldan azad olunmuş ərazilərdə dövlət və bələdiyyə idarəetmə orqanlarının fəaliyyətinin tam təmin olunması, rəqabət qabiliyyətli iqtisadi sahələrin inkişaf etdirilməsi və məşğulluğun, o cümlədən, özünüməşğulluğun təmin olunması da prioritet olmalıdır. Məcburi köçkünlərin mərhələlərlə iqtisadi və sosial məsələlər nəzərə alınmaqla öz yerlərinə qayıtması, insan kapitalının inkişafı, dövlət sərmayələri ilə yanaşı xarici və yerli sərmayənin cəlb olunması da önəmli faktorlardır. Qeyd edək ki, işğaldan azad olunan ərazilərdə dağ-mədən sənayesi, metallurgiya, yeyinti sənayesi, emal sənayesi, turizm-rekreasiya, yaradıcı sənaye, əczaçılıq, taxılçılıq, tərəvəzçilik, üzümçülük, pambıqçılıq, meyvəçilik, heyvandarlıq, quşçuluq, arıçılıq, tikini materialları kimi sahələr inkişaf potensialına malikdir. Bu sahələrə yatırılan sərmayələr həm qeyri-neft ixracının artması və idxalın əvəzlənməsi, həm də dəyər zəncirlərinə qoşulmaq nöqteyi-nəzərindən əhəmiyyət kəsb edəcək. Qarabağda investorların maraqlarına səbəb ola biləcək resurslar, strateji aktivlər, səmərəlilik və bazarlar mövcuddur. Regionun həm 80 milyonluq İran, həm də Naxçıvan üzərindən 83 milyonluq Türkiyə bazarlarına çıxış imkanları ixrac yönümlü sərmayələr üçün cəlbedicidir. Ümumiyyətlə, Qarabağ bölgəsi Azərbaycanda iqtisadi inkişafın yeni coğrafi drayveri olacaq. Bu bölgədə sərmayə qoyuluşu və quruculuq işləri Azərbaycanda Ümumi Daxili Məhsulun artımını sürətləndirəcək.

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə açıqlamasında bildirib ki, işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işləri qarşıdakı dönəmdə prioritet olaraq qalacaq.** Deputat deyib ki, bu istiqamətdə ilkin mərhələdə 2,5 milyard manat vəsait ayrılıb. 2022-ci ilin dövlət büdcəsində isə 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur: "2021-2022-ci illərdə Qarabağda aparılan bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 4,7 milyard manat vəsait ayrılacaq. İşlər çox intensiv şəkildə həyata keçirilir. Nəqliyyat və logistik infrastrukturun formalaşması, kommunal xidmətlərlə bağlı şəbəkənin qurulması istiqamətində sürətli işlər görülür. Qısa müddət ərzində Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi də mühüm addımdır. Qarabağda yenidənqurma işlərinin sürətli həyata keçməsi insanlarımızın da öz doğma yurdlarına nəzərdə tutulandan daha tez zamanda geri dönməsi deməkdir. Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialı kifayət qədər böyükdür. Artıq Ağdam və Cəbrayılda sənaye parklarının yaradılması istiqamətində işlər gedir. Bu ərazilər ölkə iqtisadiyyatının inkişafına xüsusi töhfə verəcək. Bərpa işlərindən sonra Qarabağ iqtisadiyyatının ümumi Azərbaycan iqtisadiyyatına reinteqrasiyası da reallaşacaq. Bütün bunlar deməyə imkan verir ki, qarşıdakı dönəmdə Azərbaycan iqtisadiyyatında davamlı və sürətli artımı müşahidə edəcəyik".

*V.Bayramov vurğulayıb ki, Qarabağ iqtisadi rayonunun mövcud potensialını, xammal və təbii ehtiyatlarını, məhsuldar torpaq sahələrini nəzərə alsaq, bərpa mərhələsindən sonra qısa zamanda həmin ərazilərdə məhsul istehsalının artacağı proqnozlaşdırılır:* "Çox qısa zamanda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeni iş yerlərinin yaradılmasını və güclü iqtisadi inkişafı müşahidə edəcəyik. Şərqi Zəngəzur iqtisadi rayonu strateji, iqtisadi və ən əsası tarixi baxımdan xüsusi əhəmiyyət daşıyır. Şərqi Zəngəzur həmin bölgənin iqtisadi potensialının istifadə edilməsi və genişləndirilməsi aspektindən də vacibdir. Qarabağ iqtisadi rayonunun həm sənaye, həm turizm, həm də aqrar sektorda böyük potensialı var. Şərqi Zəngəzur da həm aqrar sahədə, həm də təbii ehtiyatlar baxımından kifayət qədər böyük potensiala malik iqtisadi rayondur".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Azərbaycan hazır deyil

## Meyitdən donor köçürülməsi hələ qanuniləşməyib

**Dünyada milyonlarla insan orqan transplantasiyasi həyata keçirməsə, ölüm təhlükəsi ilə üz-üzə qalır. Azərbaycanda da belə pasiyentlər az deyil. Ancaq Azərbaycanda orqan alqı-satqısı qadağandır. Meyitdən orqan götürülməsinə qanunla icazə verilsə də, hələ ki reallaşdırılmayıb.**

"Şərq" xəbər verir ki, tibb üzrə fəlsəfə doktoru, transplantoloq Mircəlal Kazımi məsələ ilə bağlı fikirlərini bölüşüb: "2008-ci ildən indiyədək 1500-ə yaxın insan üzərində əməliyyatlar icra olunub. Təəssüflə qeyd edirəm ki, Azərbaycanda orqan köçürülməsi əməliyyatları növü və sayı məhduddur. Qaraciyər və böyrək çatışmazlığı olan şəxslərin yalnız canlı donor şansı var. Digər orqanlara ehtiyac duyan insanların sağlam həyata qaytarılması üçün meyit orqanlarından istifadə labüddür".

Psixoloq Vəfa Şərifova isə deyib ki, cəmiyyət olaraq donor psixologiyasına bir qədər hazır deyilik: "Səbəb maariflənməyin bir qədər az olmasıdır. Donorun köçürməsinə humanist yanaşmalıyıq. Biz digər insanın həyatını bu yolla xilas edə bilərik".

Həkim, deputat Müşfiq Məmmədli isə prosesin icrası üçün hazırlıq mərhələsi olduğunu bildirib: "Müvafiq ixtisaslı həkimlərin bu işə cəlb olunması xeyli vaxt tələb edir. Lakin bu istiqamətdə addımlar atılır. Orqan transplantasiyasi əməliyyatları İcbari Tibbi Sığortanın xidmət zərfinə daxil ediləcək".

**M.Məmmədli meyitdən donor köçürtmə qanununun gecikməsinin səbəbini vurğulayıb:** "Dünya təcrübəsində köklü çatışmazlıqlar, orqan alveri və digər məsələlər var. Azərbaycan da prosesləri başladığı andan elə tənzimləmək istəyir ki, başqa ölkələrdə gördüyümüz mənfi təsirlərlə qarşı-qarşıya qalmayaq".

**Aygün Tahir**

# Gələcəkdə pullu və könüllü olacaq

## Koronavirus peyvəndləri hər il yenilənməlidir



**COVID-19 peyvəndlərin tərkibi hər il yenilənə bilər. Koronavirusun yeni təhlükəli ştamlarının yaranması COVID-19 peyvəndlərinin hər il yenilənməsini (modifikasiyasını) tələb edə bilər. Bunu qurumun baş elmi işçisi Sumya Svaminathan Cenevrədəki mətbuat konfransında bildirib.**

ÜST rəsmisi bildirib ki, mütəxəssislər pandemiyanın gələcək yeni təhlükəli növlərini aradan qaldırmaq üçün peyvəndlərin tərkibini modifikasiya etməyin mümkün olub-olmamasını öyrənirlər. Sumya Svaminathanın sözlərinə görə, tərtibatçılar və elm adamları əmin olmaq istəyirlər ki, onlar lazım gələrsə hazırkı vaksinlərin tərkibini tez bir zamanda dəyişdirərək yaranacaq yeni ştamlara qarşı təsirli peyvənd ərsəyə gətirə biləcəklər.

**Mövzu ilə bağlı həkim-infeksionist Mərdan Əliyev "Şərq"ə açıqlamasında deyib ki, peyvəndlərin əslində hər il yenilənməsinə ehtiyac var.** Onun sözlərinə görə, bu yenilənmə hər peyvəndə şamil oluna bilməz: "Qrip virusu peyvəndi də artıq uzun müddətdir ki, istifadə olunur. Bu peyvəndlər də hər il yenilənir. Niyə yenilənir? Çünki bu viruslarda zaman-zaman müəyyən dəyişikliklər baş verir, həmin dəyişikliyə uyğun olaraq da peyvəndlər yenilənir. Yəni virusun həmin mutasiyasına uyğunlaşdırılır. Koronavirusun özü də böyük genomona malik olduğuna görə onda sürətli dəyişiliklər, yeni ştamlar, mutasiyalar əmələ gəlir. Ona görə də koronavirus peyvəndləri hər il yenilənməlidir. Gələcəkdə koronavirus peyvəndi pullu və könüllü olacaq".

**Aynurə Pənahqızı**

# Bakıda tikinti zamanı heç nə nəzərə alınmır

## Oyuncaq tikililər, oyuncaq damlar, oyuncaq dayanacaqlar qurulur, külək də dağıdır



***"Gecələr o ərazidəki ağacların dibinə kislota tökürlər, beş-on günə ağaclar quruyur, sonra aktlaşdırıb kəsirlər və çox keçmədən orada "filankəs müəllim"in obyekti peyda olur"***

**Paytaxtın yağışa təslimçiliyinə alışmışdıq, külək də bir yandan yağışa "qahmar" çıxdı. Amma yağış, küləyin yanında toya gedəsidir. Bir dərdin olur ki, sel-sularını necə yarıb keçəsən. Küləkdə isə dərd artır. Bilmirsən təhlükəni hardan gözləyəsən - göydən, yoxsa yerdən. Başına daş da düşə bilər, şifer də, alkapon da. Elektrik dirəyinin altında da qala bilərsən, işıqforun da, ağacın da.**

Paytaxtda noyabrın 10-u, günün ikinci yarısından başlanan güclü külək - əslində bu, tam bir qasırğa idi - noyabrın 11-i gün ərzində də davam etdi. Və şəhər sakinlərinə xeyli problemlər yaşatdı, şəhər infrastrukturu da böyük fəsadlara, dağıntılara məruz qaldı. Şəhər yağış sularına qərq olanda "əsas" tapılır, deyirlər ki, yağıntının miqdarı normadan artıq olub, neyləyək?! Deyirlər də!.. Ağıllı, vicdanlı adamlar nə etmək lazım olduğunu bilir, amma təəssüf ki, məsuliyyətsiz, səhlənkar, öz xeyrini güdən məmurlar nə onları dinləyir, nə də məsləhətə qulaq asır. Yağışı qoyaq bir kənara. Bəs küləyə nə sözünüz? Külək də normadan artıq əsir?! Bakının küləkli şəhər olması ki, tarixi gerçəklikdir! Deməк, küləklər şəhərində tikintilər, konstruksiyalar - ümumiyyətlə, hər bir detal küləyə hesablanmalıdır. Hesablanmayanda, bu cür ağır nəticələr yaranır. İllərdir, mütəxəssislər həyəcan təbili çalır ki, yaşıllıqlar məhv edilir, ağacların kökləri bilərəkdən qurudulur. Vecinə alan yoxdu. Külək bir balaca üzünü turşudan kimi ağaclar köklü-köməcli başlarını yerə qoyur. Ya da avtomobillərin belinə! Səkilərdəki ağacların əksəriyyətinin dibi betonlanır. Ağac kökləri oksigen ala bilmir və zəifləyirlər. Qısası budur ki, paytaxtımız yağışa, küləyə, qara, hətta günəşə də ayaq tutdura bilmir. Məhz məsuliyyətsiz məmurlar səbəbindən.

**Sosioloq, "Altay" Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin sədri, "Ekoloq Jurnalistlər Birliyi"nin üzvü Elçin Bayramlı "Şərq"ə açıqlamasında paytaxtda işlərin iqlim şərtlərinə uyğun aparılmasının vacibliyini vurğuladı:**

- Bakı faktiki olaraq küləklər şəhəridir, bəzən isə qasırğalar şəhərinə çevrilir. Buna görə də bu şəhərdə tikinti və yaşıllaşdırma zamanı ən əsas nəzərə alınası amil bu olmalıdır. Keçən əsrdə bunu nəzərə alırdılar. İndi isə oyuncaq tikililər, oyuncaq damlar, oyuncaq dayanacaqlar qurulur, külək də dağıdır. Bakının yağışa, küləyə təslim olmasının səbəbi nə olacaq ki? Əlbəttə korrupsiya. Kim harda nə istəyir, necə istəyir tikə bilər, heç bir arxitektura norması, şəhərsalma qaydası, infrastruktur sistemi burada keçmir, yeganə şərt puldur, pulunu ver, harda nə istəyirsən elə. Bu səbəbdən də Bakı eybəcər və xaotik bir şəhərə çevrilib. Konkret olaraq paytaxt tam iflic vəziyyətə düşüb. Tıxaclar dəhşətli vəziyyətə çatıb. Çünki harda gəldi sıx-sıx hündür binalar tikilib və dar küçələr normadan dəfələrlə artıq avtomobil hərəkətini ödəyə bilmir. Hər gün işə gedib-gələrkən Bayılda Neftçi Qurban küçəsindən keçirəm. Təsəvvür edin, 1 gəliş-1 gedişli dar bir küçədir. Küçənin hər iki tərəfi boyunca 20 mərtəbəli binalar tikilir, artıq oradan keçmək qeyri-mümkün hal alıb. O binalar tikilib başa çatandan və istifadəyə veriləndən sonra orada tam kollaps vəziyyəti olacaq. Əksər yerlərdə də belədir. Bu şəhərin Baş Planı yoxdurmu, bu nə biabırçılıqdı, kimin kefi harda nə istəyir onu da edir?!

**E.Bayramlı güclü küləklər zamanı ağacların kökündən qopması probleminə də toxundu:**

- Yaşıllıqlara gəldikdə, Bakı onsuz da əhali və əraziyə nisbətdə yaşıllıq sahəsinin az olduğu şəhərlərdən idi, 80-ci illərlə müqayisədə bu şəhərdə yaşıllıq sahələrinin həcmi 2 dəfədən çox azalıb, əhali 2 dəfə, binaların, evlərin sayı 3-4 dəfə artıb. Kim harda obyekt tikmək istəyir, orda günün günorta çağı hamının gözü qarşısında ağacları kəsir. Belə edə bilməyəndə, yəni sakinlər imkan verməyəndə də gecələr o ərazidəki ağacların dibinə kislota tökürlər, beş-on günə ağaclar quruyur, sonra aktlaşdırıb kəsirlər və çox keçmədən orada "filankəs müəllim"in obyekti peyda olur. Bizdə sakinlərin ictimai və sosial məsuliyyəti, birliyi, ictimai etiraz olmadığından bunu çox rahatca edə bilirlər. Ağaclara düzgün qulluq edilmir, ona görə də adi külək belə onları aşırır. Həyətlərdəki ağaclar quruyur. Çünki "Azərsu" həyətlərdəki su kranlarını kəsib, o ağaclar suvarılmır. Yalnız parklarda və bəzi küçə kənarlarındakı ağaclar hərdən suvarılır. "Azərsu"nun bu "xidmətləri" sayəsində tezliklə Bakıda yaşıllıq həcmi bir neçə dəfə də azalacaq. Həyətlərin, ara küçələrin kənarındakı ağaclar quruyacaq. Bu isə Bakıda onsuz da ağır olan ekoloji vəziyyəti dəfələrlə ağırlaşdıracaq. Konkret Bakı şəhəri tam iflicolma həddindədir. Bu məsələlərlə bağlı böyük bir iş açılmalıdır, buna yol verən minlərlə məmur əmlakı müsadirə olunmaqla həbs edilməli, uyğun olmayan obyektlər sökülməli, şəhər yenidən baş plana və şəhərsalma normalarına uyğun qurulmalıdır. Əks halda tezliklə Bakı yaşanılması mümkün olmayan iflic şəhərə çevriləcək.

**Məlahət Rzayeva**

# Əsassız pensiyaların ləğvi büdcədə yeyinti olduğunu göstərir

## Bu prosesdə iştirak edən şəxslərin cəzalandırılması bütün istiqamətlərdə aparılmalıdır



**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında ”Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, cari ilin 10 ayı üzrə əsassız və saxta pensiya işlərinin ləğv edilməsi nəticəsində təqribən 500 milyon manat məbləğində vəsaitə qənaət edilib.**

Nazir həmçinin, 2018-ci ildə 25 milyon, 2019-cu ildə 133 milyon, 2020-ci ildə 346 milyon manat məbləğində əsassız və saxta pensiya işləri ləğv edildiyini diqqətə çatdırıb.

**Maraqlıdır, qənaət edilmiş bu məbləğ ilə hazırda ödənilən pensiyalara artım oluna bilərmi? Bu kimi qanundan kənar halların qarşısını necə almaq olar? Bu barədə iqtisadçı-ekspert Rəşad Həsənov ”Şərq”ə danışıb. O bildirib ki, hələ 2016-cı ildə prezident ”Pensiya sistemində islahatların aparılması”na dair sərəncam verib:** ”Burda əsas hədəf olaraq Dövlət Sosial Müdafiə Fondunun gəlirləri və xərcləri arasında optimallığın təmin edilməsi istiqamətində idi. Eyni zamanda strategiyalarda kəmiyyət dəyişikliyindən keyfiyyət dəyişikliyinə keçid kimi bənzər yanaşma var. Burda əsas məsələ odur ki, düzgün olmayan təyinetmələrin qarşısını alıb qənaət edə biliblər. İndi həmin vəsaitlərin növbəti mərhələdə keyfiyyət dəyişikliyinə çevrilməsinə yönəldə bilərlər. Pensiya sisteminin təmin ediciliyinin artırılması, pensiya səviyyəsinin özünün yüksəldilməsi üçün bir avantajdır. 500 milyon manat bu gün ölkədə təxminən hər bir pensiyaçı üçün orta hesabla aylıq pensiya məbləğini 30 faiz artırmağa imkan yaradır. Bu o deməkdir ki, 1 milyon 205 min pensiyaçının hər birinin aylıq gəlir səviyyəsi on faiz artar. Belə hesabla hər bir pensiyaçıya 35 manat əlavə vəsait vermək olar”.

**İqtisadçı qənaət edilmiş məbləğin bu şəkildə istifadə edilməsinin eyni zamanda bugünkü sürətli qiymət artımı prosesində əhalinin yoxsullaşmasının qarşısını ala biləcəyini vurğulayıb:** ”Digər tərəfdən əsassız pensiyaların ləğvi büdcədə yeyinti olduğunu göstərir. Bu prosesdə iştirak edən şəxslərin cəzalandırılması bütün istiqamətlərdə aparılmalıdır. Çox təəssüf ki, biz bu günə qədər bu istiqamətdə qərar qəbuledicilərin deyil, daha çox hansısa formada prosesin icraedicilərinin cəzalandırıldığını görürük. Amma bilirik ki, bu proseslər xüsusi ilə də pensiyaların təyin edilməsi sahəsindəki proseslər iki böyük qurum arasında - Səhiyyə Nazirliyi və Müdafiə Nazirliyinin birgə əməkdaşlığı formasında təzahür edir. Və hər iki qurumun birinci təmsilçisindən sonuncuyadək hamısı bu işdə iştirak edirlər. Korrupsiya hallarının böyük əksəriyyəti təəssüf ki, müvafiq məsələlərə görə cəzalandırılmayıb. Hətta sabiq Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun həbsinin də belə məsələlərlə əlaqələndirilməsi rəsmi şəkildə olmayıb. Əvvəlcə burdan başlamaq lazımdır”. Ekspert cəzasızlıq prezumpsiyasına şərait yaradan bütün parametrlərin aradan qaldırılmasının vacibliyini əlavə edib: ”Təkcə bu sahədə deyil, digər sahələrdə də. Heç kəs törətdiyi əmələ görə cəzasız qalacağını düşünməməlidir. Bundan sonra ictimai nəzarət mexanizmi gücləndirilməlidir. Dövlət vəsaitləri üzərində xərcləməyə nəzarətin alternativ alətlərindən istifadə Hesablama Palatasının strukturunun genişləndirilməsi, müstəqilliyinin artırılması istiqamətində işlər aparılmalıdır” .

**Günəş Mərd**

## “Nar" Qarabağ müharibəsi iştirakçılarına dəstək istiqamətində sosial layihələrini davam etdirir

**”Nar” ”Yaşa, Vətən” kommunikasiyasının davamı olaraq, Qarabağ müharibəsi iştirakçılarına dəstək məqsədli sosial layihələrini davam etdirir.**

Belə ki, mobil operator ”Gələcəyini Qur!” layihəsi ilə əməkdaşlıq çərçivəsində Qarabağ müharibəsi veteranları və hərbçi ailələrindən 10 məktəblinin universitet hazırlığı xərclərinin ödənilməsini öz üzərinə götürüb. Məqsəd gənclər üçün təhsil imkanlarını daha da əlçatan edərək onların uğurlu gələcəyinə töhfə verməkdir. ”Gələcəyini Qur!” Gəncliyə Dəstək yüksək bilik və bacarığa malik olan 11-ci sinif şagirdlərini müəyyən edərək, onlar üçün bir il ərzində universitetə hazırlıq, psixoloji dəstək və şəxsi inkişafa yönəlmiş müxtəlif təlim, səfər və tədbirlər təşkil edir. 2014-cü ildən Təhsil Nazirliyinin dəstəyi və bir sıra şirkətlərin sponsorluğu ilə fəaliyyət göstərən ”Gələcəyini Qur!” layihəsinin əsas məqsədi aztəminatlı ailələrdən təhsil alma həvəsi və potensialı olan gəncləri ali təhsilə yiyələnməkdə dəstəkləmək, onları cəmiyyətin tamhüquqlu, məsul, bilikli və bacarıqlı vətəndaşları olaraq inkişaf etməsinə kömək etməkdir.

*Xatırladaq ki, bundan öncə də ”Nar” şəhid ailələrindən olan tələbələrə dəstək olmaq üçün NDU ilə birgə təqaüd proqramına start vermişdi. ”Nar”ın digər sosial layihələri və KSM strategiyası haqqında daha ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.*

Dostları dünyanın ən məşhur 100 alimi içərisində yer alan həmyerlimiz, Süleyman Dəmirəl Universitetinin professoru Abdulla Sofiyevə anası

**Maxmirə xanımın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət etsin!**

**Elan**

Xırdalan şəhəri AAAF Park Yaşayış Kompleksi tərəfindən verilən Şirəliyev Yasər Təzəxan oğluna məxsus 12-ci küç., 6-cı blok, 34-cü mənzilin (mansar tipli) müqavilə sənədi itdiyi üçün etibarsız sayılır.

# Liberal bazar yoxdur

## Ucuzlaşmanın qarşısını alan inhisarçılıqdır

**Ötən gün Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. İclasda gələn ilin büdcəsi zərfinə daxil olan sənədlər müzakirə olunub. Diskussiya zamanı millət vəkili Vahid Əhmədov vurğulayıb ki, ”Dövlət rüsumu haqqında” qanunda çox ciddi dəyişikliklər edilməlidir.**

Onun sözlərinə görə, rüsumların çoxu ərzaq məhsulları ilə bağlıdır. Bu da ümumi bazarda qiymət artımına təsir edir.

Vahid Əhmədov gündəlik tələbat mallarına 18 faiz ƏDV tətbiq edilməsinin əleyhinə olduğunu söyləyib. Millət vəkili vurğulayıb ki, əhalini ən çox narahat edən məsələ qiymət artımıdır. Biz maaşları, pensiyaları nə qədər artırsaq da, qiymət artımını qarşılaya bilməyəcəyik. Qiymət siyasətində müəyyən məsələləri həll etməliyik. Digər tərəfdən, bütün məhsullara 18 faiz ƏDV qoyuruq. Gündəlik tələbat mallarına niyə 18 faiz ƏDV tətbiq etməliyik? Beynəlxalq təcrübə var. Bu məsələni bir neçə dəfə qaldırmışıq. Xahiş edirəm bu məsələyə diqqət yetirəsiniz”.

Maliyyə naziri Samir Şərifov isə çıxışı zamanı ərzaq məhsulları ilə bağlı dövlət rüsumunun artırılması mövzusuna münasibət bildirib.



Onun sözlərinə görə, heç bir ərzaq məhsulunun rüsumunda bir qəpik də olsun, artım yoxdur:

”Ərzaq məhsullarının qiymətinə təsir edəcək dövlət rüsumlarında artım yoxdur. Bu, tamamilə əsası olmayan uydurmalardır”.

**Rüsumların artırılması ilə bağlı ”Şərq”ə danışan iqtisadçı-ekspert Rəşad Həsənov bildirib ki, bu gün Azərbaycanda rüsumların artmasını şərtləndirən müxtəlif faktorlar var:**

”Bunlardan biri gündəlik tələbat məhsullarının idxaldan asılılıq səviyyəsinin yüksək olmasıdır. Biz nəticədə qlobal bazarlarda baş verən qiymət təzyiqlərini, inflyasiyanı ölkəyə idxal etmiş oluruq. İkinci bir məsələ, daxili bazarda istehsal olunan məhsulların maya dəyərinin xammal baxımından idxaldan asılı olmasıdır. Xüsusilə də pandemiya və onun yaratdığı mühitdə transfer xərcləri ciddi şəkildə artırılıb. Dolayısı ilə ölkədə istehsal olunan məhsulların maya dəyəri yüksəlib. Bu, istehsal qiymətləri indeksində də özünü göstərir. Nəticədə sahibkarlar bu xərcləri mərhələli şəkildə olsa da, son istehlakçı qiymətləri üzərində əks etdirmək məcburiyyəti ilə üz-üzə qalırlar”.

**İqtisadçı həmçinin əlavə edib ki, artımı şərtləndirən məsələlərdən biri də ölkənin daxili bazarında alıcıların sayının azlığıdır:**

”Yəni liberal bazarın olmamasıdır. Məhsulların bir çoxu istiqamətində inhisarçılıq mövcuddur. İnhisarçılıq qiymətlərin ucuzlaşması, rəqabət mühitində formalaşması, maksimal həddə çatması, mənfəət normasından arzuolunan həddə qədər aşağı düşməsi kimi proseslərin qarşısını alır. Qiymətlərin artırılması istiqamətində başqa ölkələrlə, liberal bazarlarla müqayisədə daha əlverişli şərait var. Təbii ki, digər faktor isə hökumətin özünün əlində olan təşviq alətlərdən arzuolunan səviyyədə istifadə etməməsi məsələsidir”.

**Sücayət Mehti**

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

-**MÜHASİBAT** (2 AY)

-**Mobil telefonların təmiri** (3 ay)

-**KOMPYUTER** (1-3 AY)

-**KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

-**KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

-**Dizayn** (3-6ay)

-**Masaj** (3 ay)

-**Biçmə - Tikiş** (3 ay)

-**Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



## Yoxlamalar heç bir narahatçılıq yaratmayacaq

### Əlillik müddəti bitən hər bir şəxs nazirliyə yenidən müraciət etməlidir

**Vətəndaşların əlillik müddəti bitdiyindən onlar aidiyyəti üzrə müraciət edərək müvafiq yoxlamalardan keçib təkrar əlilliklərinin uzadılmasını təmin edə bilərlər.**

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında ”Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib.

Nazir qeyd edib ki, bu il 193 min insanın 5 illik əlillik müddəti bitir. ”Onların heç birinin əlilliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən saxlanılmayıb. Bu, qanunvericiliklə tənzimlənən məsələdir” - deyə nazir bildirib.

**Mövzu ilə bağlı Qarabağ qazisi Rey Kərimoğlu ”Şərq”ə açıqlamasında bildirib ki, əslində bu, yeni qəbul edilmiş qərar deyil. O, açıqlamasında vurğulayıb ki, əlillik müddəti bitən hər bir şəxs 5 il müddətindən sonra nazirliyə bununla bağlı yenidən müraciət etməlidir:** ”Bu qanun bir neçə il bundan öncə qəbul edilib. Hesab edirəm ki, bu, həmin şəxslərdə gələcəkdə heç bir problem yaratmayacaq və heç bir narazılığa səbəb olmayacaq”.

**Aynurə**

# Bill Geyts də taxta evdə yaşayır

## İpoteka kreditindən bezən gənclər “cırtdan ev”lərə üstünlük verir

*(Əvvəli səh: 8-də)*

**İpoteka nə qədər insanın baş bəlasına, can dərdinə çevrilib. Təkcə bizdə yox, Avropada da. Hətta dünyaca məşhur iş adamı, ”Microsoft” şirkətinin qurucusu Bill Geyts də pula qənaət etmək, eyni zamanda daha rahat, hüzurlu bir ortamda yaşamaq və işləmək üçün (dünyanı çalxalayan ideyalar gəlməlidi axı başına) ”cırtdan ev”lərə üstünlük verir.**



”Cırtdan ev”lər adlandırılan, daha çox ”tiny house” adı ilə bilinən kiçicik evlər ipoteka ”soyğunçuluğu”na qarşı, həmçinin yüksək məbləğləri baş gicəlləndirən daşınmaz əmlak bazarına alternativ olaraq düşünülmüş ən uğurlu ideya hesab edilir. Belə evlər çox zaman təbiət qoynunda, şəhərin səs-küyündən, ağır havasından kənar sakit məkanlarda, ən önəmlisi isə az məsrəflə, taxta, plastik, yüngül konstruksiyalar, ümumiyyətlə, ucuz materiallardan tikilir. ”Tiny house” İsveçdə gənclər arasında son illərdə populyarlaşıb. ”Şərq” ”Milliyyet.com”a istinadən bildirir ki, kirayələrdən, ipotekalardan canlarını qurtarmaq istəyən gənclər ”cırtdan ev”lərə üz tutur, təbiətlə baş-başa yaşam tərzini seçirlər. Bu evlər 8-10 kvadrat.metr ərazi üzərində qurulur, istənilən zaman onları sökmək mümkündür, ucuz qiymətə də başa gəlir. Çünki onların tikintisində yerli tikinti materiallarından istifadə edlir. Məsələn, Garpenberg qəsəbəsində bir neçə belə ”cırtdan ev” var. Bu cür evlərdə yaşamağı seçənlər illərlə ipoteka krediti ödəməkdən bezdiklərini deyir, nəhayət, ”Tiny house” layihəsi ilə rahat bir yaşama sahib olduqlarını söyləyirlər. Kiçicik evlər böyük evlər, malikanələrlə müqayisədə daha rahat və az məsrəflidir. İsveçdə ”mortgage krizi” - ipoteka krizisi 2008-ci ildən başlayıb. İpoteka kreditindən bezənlər kiçik evlərə sərmayə qoymağa başlayıb və beləcə ”tiny house” dalğası yaranıb. Bu, məişətdə minimalizm axınıdır: kiçik ölçülərdə, kiçik məsrəflərlə rahat yaşayış! 2019-un sonları, 2020-ci ilin əvvəlindən başlanan koronavirus pandemiyası isə insanların daş binalardan, böyük yaşayış massivlərindən uzaqlaşmaq istəyini artırdı. Pandemiyada evlərə kilidlənən insanlar təbiət qoynuna can atmağa başladılar. ”Cırtdan evlər” bu zaman da insanların köməyinə gəldi. İnsanlar təkcə cırtdan evlərlə deyil, konteyner evlər, dartma karvan avtomobilləri, mobil evlərlə vəziyyətdən çıxmağa çalışır. İş o yerə çatıb ki, hətta dünyanın ən varlı insanlarından biri - Bill Geyts (adətən həftə sonları), məşhur memar Le Corbusier də (son illərdə) özlərinə kiçik daxmalar tikdirib. ”Cırtdan evlər” ABŞ, Kanada, Avstraliya, Böyük Britaniya, həmçinin Türkiyədə də son illərdə populyarlaşmağa başlayıb. Araşdırmalara görə, 2030-cu ildə dünya əhalisinin 60 faizi - 5 milyard insan şəhərlərdə yaşayacaq. Odur ki, gələcəyi hesablayanlar indidən təbiətə doğru qaçır. Kiçicik evlər daşınmaz əmlak, həmçinin iqtisadi krizislərdən yaxa qurtarmağın ən optimal yolu sayılır.

**Məlahət Rzayeva**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2282



## 21 həftəlik körpə...

### Ginnesin rekordlar kitabına düşdü

**ABŞ-ın Alabama ştatında 21 həftəlik körpə bütün risklərə rəğmən həyatda qalıb və bununla da adını Cinnesin rekordlar kitabına yazdırıb.**

"Şərq" BBC Türkcə-yə istinadən xəbər verir ki, körpə Birmingham şəhərində dünyaya gəlib. Körpənin anası Michelle Butler 2020-ci il iyul ayının 4-də xəstəxanaya aparılıb və o, əkiz körpələr dünyaya gətirib. Lakin körpələrdən biri C.Asya bir gün sonra vəfat edib. Digər körpə, cəmi 420 qram ağırlığında doğulmuş Curtis Means isə zəif orqanları ilə həyatda qalmaq üçün mücadilə edib və 275 gün sonra anasıyla birlikdə xəstəxanadan evə buraxılıb. Bununla da körpə adını Cinnesin rekordlar kitabına "həyatda qalan ən prematur körpə" (vaxtında əvvəl doğulan körpə) olaraq yazdırmağı bacarıb. Həkimlərsə Curtisin indi də bəslənmə aparatına bağlı yaşadığını bildirir. Onun həyati təhlükəsi hələ keçməyib.

**Məlahət**

## Bill Geyts də taxta evdə yaşayır

### İpoteka kreditindən bezən gənclər "cırtdan ev"lərə üstünlük verir



**İpoteka nə qədər insanın baş bəlasına, can dərdinə çevrilib.**

Təkcə bizdə yox, Avropada da. Hətta dünyaca məşhur iş adamı, "Microsoft" şirkətinin qurucusu Bill Geyts də pula qənaət etmək, eyni zamanda daha rahat, hüzurlu bir ortamda yaşamaq və işləmək üçün (dünyanı çalxalayan ideyalar gəlməlidi axı başına) "cırtdan ev"lərə üstünlük verir. "Cırtdan ev"lər adlandırılan, daha çox "tiny house" adı ilə bilinən kiçicik evlər ipoteka "soyğunçuluğu"na qarşı, həmçinin yüksək məbləğləri baş gicəlləndirən daşınmaz əmlak bazarına alternativ olaraq düşünülmüş ən uğurlu ideya hesab edilir. Belə evlər çox zaman təbiət qoynunda, şəhərin səs-küyündən, ağır havasından kənar sakit məkanlarda, ən önəmlisi isə az məsrəflə, taxta, plastik, yüngül konstruksiyalar, ümumiyyətlə, ucuz materiallardan tikilir.

*(Davamı səh: 7-də)*







# Samuray qılıncı ilə öldürüldü

## Qatilin etirafları insanları dəhşətə gətirdi

**Məlahət Rzayeva**

**İstanbulda gənc qadın samuray qılıncı ilə qətlə yetirilib. Qətlə yetirilən 28 yaşlı Başak Cengiz memar idi. "Şərq" "Milliyyet.com"a istinadən xəbər verir ki, hadisə srağagün axşam saatlarında İstanbulun Ataşəhər Barbaros Məhəlləsindəki Qərənfil küçəsində, yaşayış binasının önündə baş verib. Küçə ilə gedən Başak Cengiz tanımadığı bir adamın hücumuna məruz qalıb.**

Əlində samuray qılıncı tutmuş birisi gənc qadına hücum çəkərək qılıncla bir neçə yerdən yaralayıb. Ağır yaralanan gənc qadın qanlar içində yerə yıxılıb. Qadının harayına gələnlər təcili yardım çağırıb. Başak Cengiz xəstəxanaya çatdırılsa da həyatını xilas etmək mümkün olmayıb. Qadını xəncərlə yaralayan Can Göktuğ Boz isə şübhəli şəxs qismində polis tərəfindən yaxalanıb. Başak Cengizin cənazəsi doğulduğu Ankaraya gətirirlib və orada torpağa tapşırılıb. Cənazədə gənc qadının nişanlısı Mahir Mızrak göz yaşları içində "edam qüvvəyə minsin! Edam hökmü verilsin! Qatilin ən ağır şəkildə cəzalanmasını istəyirik" çığıraraq "bu adamın psixoloji problemləri olduğu qətidir. Qarşısına kim çıxdısa öldürəcəkmiş. Qarşısına Başak çıxıb. Hər gün servislə işə gedən nişanlım o gün avtobusa minməyib. Bu adam da qarşısına çıxıb. 2 ildir münasibətlərimiz vardı, 6 aydır da nişanlıydıq. İstanbula təyinat almasaydı, daha erkən evlənəcəkdik. Bazar günü işlərini başa vuracaqdı, mən də onunla birlikdə Ankaraya qayıdacaqdım. Amma cənazə maşını ilə gətirdim", deyib. Cənazədə Başakın atası və anası da faciədən sarsılmış halları ilə hər kəsi təsirləndiriblər. Başakın anası Reyhan Cengiz qızının tabutuna sarılaraq "balamı bizdən qopardılar, balamı doğradılar... Evə qayıdacaqdı, gəlin olacaqdı, övladım. Quzum..." deyərək fəryad edib. Ananın halı pisləşdiyindən təcili yardımla xəstəxanaya aparılıb. Başak Cengiz üçün qılınan cənazə namazından sonra gənc memar torpağa tapşırılıb.

*Qeyd edək ki, Başak Cengizin qətlində şübhəli qismində yaxalanan Can Göktuğ Boz istintaqa verdiyi ifadədə birisini öldürmək fikrinə düşdüyünü və bunun məhz qadın olmasını istədiyini etiraf edib: "Evdən çıxarkən birisini öldürməyi planlamışdım. Və bu şəxs qadın olmalıydı. Binanın önündə bir müddət gezişdim. Bu zaman bir xanımın gəldiyini gördüm. Onun arxasınca düşdüm və yaxınlaşıb qılıncla bir neçə dəfə yaraladım". Şübhəli şəxs 2 ali məktəb məzunudur. Axtarış zamanı evində daha 15 qılınc və bıçaq aşkarlanıb. Başak Cengizin qətlə yetirildiyi samuray qılıncı isə 75 santimetr uzunluğundadır. Şübhəli şəxs Can Göktuğ Boz "əvvəlcədən planlaşdıraraq vəhşicəsinə, əziyyət verərək qətl etmək" maddəsi ilə ittiham olunur.*







## Azərbaycandan Gürcüstana gedən turistlərin sayı azalıb

**2021-ci ilin yanvar-oktyabr aylarında Gürcüstana səfər edən azərbaycanlı turistlərin sayı 65 867 nəfər təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 77,1 faiz azdır. Trend bu barədə Gürcüstanın Milli Turizm Administrasiyasının hesabatına istinadən məlumat verir. Bu göstərici ilə Azərbaycan Gürcüstana səfər edən vətəndaşların sayına görə yeddinci yerdə qərarlaşıb. Ümumilikdə, hesabat dövründə Gürcüstana 1,5 milyon turist səfər edib. Bu, 2020-ci ilin eyni dövrü ilə müqayisədə 7,7 faiz azdır.**

## 2035-ci ildən benzin və dizel avtomobilləri satılmayacaq



**2035-ci ilə ABŞ-da daxili yanacaq mühərrikli avtomobillərin satışına qadağa qüvvəyə minəcək.**

**"Report" xarici mətbuata istinadən xəbər verir ki, bunu Qlazqoda keçirilən iqlim konfransı (COP26) çərçivəsində ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi Con Kerri deyib.**

**Onun sözlərinə görə, 2030-cu ilə kimi ABŞ bazarında satılan avtomobillərin 50 %-i, 2035-ci ilə kimi isə 100 %-i elektromobil olacaq: "Ford" və "General Motors" kimi şirkətlər artıq bunun altından imza atıb. Digər avtomobil istehsalçısı "Stellantis" də elektrikli avtomobillərin satışını artırmaq istəyir. Lakin şirkətlərin nümayəndələri bəyan edir ki, belə iddialı planın həyata keçirilməsi ancaq istehlak tələbi, həmçinin infrastrukturun inkişafı üçün stimullaşdırıcı tədbirlər şəklində dövlət dəstəyinin olacağı təqdirdə realdır".**



# Son konserti niyə alınmadı?

## Maykl Ceksonun ölümünün sirr pərdəsi hələ tam qalxmayıb

**Məlahət Rzayeva**

**Pop musiqisinin kralı Maykl Ceksonun ölümü ətrafında sirr pərdəsi hələ də tam qalxmayıb. Tibbi ekspertiza ölümün səbəblərini bir müddət sonra açıqlasa da, milyonlarla pərəstişkarı Ceksonun həyatla vidalaşma ehtimallarını müzakirə etməkdədir.**

Maykl Ceksonun ölümü ilə bağlı o qədər müxtəlif ehtimallar, mülahizələr səslənir ki, hansının gerçək, hansının yalan olduğu ayırd ediləməz şəkil alıb. Bu da məlum olub ki, Cekson böyük bir səfər və izdihamlı konsert proqramı planlayırmış. "Şərq" xəbər verir ki, xarici mediada yer alan məlumata görə, konsert proqramının adı "This Is It" idi. Konsert ilk olaraq Londonda baş tutacaqdı. Bunun ardınca isə daha 50 konsert proqramı gerçəkləşəcəkdi. Konsertin xoreoqrafı Kenny Ortega deyir ki, bu, Ceksonun geriyə böyük dönüşü olacaqdı. Və Cekson bunun həyata keçməsi üçün var gücü ilə çalışırmış. Təsəvvür edin ki, konsert proqramı elan edilən kimi 5 saat içində 750 min bilet satılıb. Cekson bu performans zamanı məşhur Şarovskidən 1 milyon sterlinq dəyərində kostyum sifariş veribmiş. Konsert proqramının DVD formatında lentə alınıb yayımlanması da planlaşdırılmışdı. Bəs nə baş verdi ki, bu möhtəşəm planlar həyata keçmədi? 2009-cu il iyunun 25-də Maykl Ceksonun ürəyi dayandı!.. Yaxın ətrafı bilirdi ki, Ceksonun səhhətində, xüsusilə son illər problemlər yaranmağa başlayıb. Problem təkcə kəskin yuxusuzluq deyildi, həm də o, davamlı stress içindəydi. Yuxusuzluğa qalib gəlmək üçün Cekson mütəmadi "Propofol" preparatı qəbul edirmiş. Həkimlərsə bunun səhhətinə mənfi təsir göstərdiyini bildirirdi. Yuxusuzluq artıq xroniki xəstəlik halını almışdı. Mütəmadi "propofol" və eyni tərkibli digər dərmanar isə Ceksonun birbaşa ölümünə səbəb ola bilərdi və təəssüf ki, gözlənilən oldu. Cekson yuxusuzluqla yanaşı paranoya və qorxu da daxil olmaqla bir sıra simptomlar da keçirirmiş. CNN xəbər verirdi ki, Cekson hazırlıq aparılan konsertin rəhbəri Kenny Ortegaya "Tanrını duya bilirəm, tanrı ilə danışıram" deyib və ətrafındakıların onun səhhəti ilə bağlı narahatlıqları artıb. Yəni Ceksonun səhhətindəki problemlər təkcə tibbi olmayıb, o həm də ruhi cəhətdən sarsıntı içindəymiş. Cekson Frank Di Leoya "dünyaya ən böyük şounu göstərməliyik", deyibmiş və bunun üçün gecə-gündüz, dincəlmədən çalışırmış. Səs operatoru Ken Ehrlich son hazırlıqlardan sonra "mən onu dinləyərkən ürpənirdim", söyləyib. Cekson qarşıdakı möhtəşəm konsert proqramı öncəsi musiqi həyatındakı keçmiş dostlarından bir çoxu ilə əlaqə yaradıb, onlarla təkrar bir araya gəlmək istədiyini bildirib. Buna görə o, özünü xoşbəxt hiss edirmiş. Hətta rəqs müəllimi də Mayklın yaxşı formada olduğunu söyləyib: "Əgər mən onda nəsə bir çatışmazlıq görsəydim, bunu ona bildirərdim. Amma o, çox yaxşı formadaydı". Cekson həkimlərin təyin etdiyi dərmanlara qarşı həssasdı və heç birini əskik etməzdi. Ağrıkəsicilərə alışqanlıq isə Ceksonun üzündə, dərisində aparılmış rekonstruktiv əməliyyatlardan (kosmetik əməliyyatlar) sonra yaranmışdı.



Ağrılara dözmək üçün o, həddindən artıq ağrıkəsici qəbul edirmiş. Ceksonun dərmanlara aludəliyinin səbəbi bu idi. Son gecə isə məşqlər bitdikdən sonra evə gəlib. BBC-nin xəbərinə görə, yuxusuzluq yenə başlayıb və o, qarşıdakı konsert proqramı müddətində özəl həkimi olacaq doktor Conrad Murraydən yardım istəyib. Həkim də ona "Valium", "Ativan" və "Versed" kimi dərmanları məsləhət görüb. Dərmanlar kömək etməyib və Maykl səhəri yorğun açıb. "Konsert öncəsi dincəlməliyəm" deyərək istirahət etmək istədiyini söyləyib. Həkimdən bu dəfə "propofol" istəyib. Həkim az miqdarda qəbul etməsinə razılaşıb. Həkim onun yanından ayrılandan cəmi 2 dəqiqə sonra Ceksonun ürəyi dayanıb. Həkimi ürəyi çalışdırmaq istəyib, lakin faydası olmayıb. Bir neçə saat sonra - 14:26-da UCLA Tibb Mərkəzi Meykl Ceksonun vəfat etdiyi xəbərini verdi. Qeyd edək ki, həkim Murray istintaqa cəlb edilib, onun qərəzsiz, istəmədən insan ölümünə səbəb olduğu qərara alınıb. Milyonlarla pərəstişkarı üçün möhtəşəm şou hazırlayan Maykl Ceksonun heyranları bu son tamaşaya görə hələ də göz yaşları içindədirlər.

## Neymar məşqə 12 milyonluq helikopterlə getdi



**Braziliya millisinin və PSJ-nin üzvü Neymar yenidən diqqət mərkəzinə düşüb.**

**Qol.az xəbər verir ki, 29 yaşlı hücumçu millinin son məşqinə şəxsi helikopteri ilə gedib. Helikopterin qiymətinin 12 milyon avro olduğu bildirilir.**

***Qeyd edək ki, Braziliya millisi DÇ-2022-nin seçmə mərhələsində noyabrın 17-də Argentinanın qonağı olacaq.***

## Fotosuna görə 50 min təzminat alacaq

### Görüntüsü icazəsiz reklamda istifadə olunub



**Türkiyəli aktyor Ümid Erdimin şirniyyat yeyərkən çəkilən görüntüsü icazəsiz reklamda istifadə olunub.**

**Axşam.az xəbər verir ki, aktyor bu səbəbdən məhkəməyə müraciət edib.**

**Firmanın görüntünü icazəsiz istifadə etdiyi üçün 50 min lirə təzminat ödəməsinə qərar verilib.**